KHAZAR REVIEW

№ 426 Mart 2023

# XƏZƏR XƏBƏR



## Hamlet İsaxanlı-75

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





# Hamlet İsaxanlı-75







# Hamlet İsakhanlı-75





# İÇİNDƏKİLƏR

**Hamlet İsaxanlı-75**

İlahiyyat İnstitutunda professor, akademik Hamlet İsaxanlı ilə görüş ..... 6
"Dünya" məktəbində yubiley tədbiri: "Məchulları aydınladan ömür" ..... 10
Xəzər Universitetində professor, akademik Hamlet İsaxanlının yubileyi ..... 16
*Firangiz Nasirova.* Khazar is a stage (*Imitation to W.Shakespeare*) ..... 19
Professor, akademik Hamlet İsaxanlının yubileyinə həsr olunan beynəlxalq konfrans ..... 20
Professor, akademik Hamlet İsaxanlıya təbrik məktubu (*ATİB - Cemal Yanğın*) ..... 23
*Musa Nəbioğlu.* Elmlə poeziyanın vəhdət düsturu ..... 24
Professor, akademik Hamlet İsaxanlının yubileyi münasibətilə MEK-də sərgi ..... 27
Bakı Kitab Mərkəzində "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının təqdimatı ..... 28
Professor, akademik Hamlet İsaxanlıya təbrik məktubu (*Azərbaycan Yazıçılar Birliyi*) ..... 34
*Məmməd Bayramoğlu.* Ad günün mübarək, əziz Hamlet müəllim! ..... 36
Professor, akademik Hamlet İsaxanlıya təbrik məktubu (*UNEC-Ədalət Muradov*) ..... 37
*Rza.* Demək istədiyim - deyə bilmədikərim və ya verilməyən hədiyyə ..... 38
*Xuraman Nağızadə.* Güclü bir insandır Hamlet İsaxanlı! ..... 40
Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva professor, akademik Hamlet İsaxanlını təbrik etdi ..... 44
Bəstəkar Elza Seyidcahanın müəllif konsertində Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Bakı" mahnısı da ifa olundu ..... 47
Professor, akademik Hamlet İsaxanlının 75 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans ..... 48

"Xəzər"in məzunu Müdafiə sənayesi nazirinin müavini təyin edilib ..... 52
"Creatıve Spark" layihəsinin bağlanış mərasimi ..... 54
Professor, akademİk Hamlet İsaxanlı Xalq artisti Elşən Mansurovun yubiley tədbirində ..... 57
"1 Mart – Ümumdünya Mülki Müdafiə Günü"nə həsr edilmiş tədbir ..... 62
Xəzər Universitetinin əməkdaşı 26-cı Avrasya İqtisadi Zirvə Toplantısında ..... 70
Xəzər Universitetinə "Təşəkkürnamə" təqdim olunmuşdur ..... 74
Xəzər Universitetinin professoru Qaisar Sultana Azərbaycanda Fulbrayt Mütəxəssisi Mükafatına layiq görülüb ..... 75
Əcnəbi tələbələr üçün Novruz şənliyi ..... 76

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Hamlet Isakhanli-75**

- *Meeting With Professor, Academician Hamlet Isakhanli at Institute of Theology* ....6
- *Jubilee Event at "Dunya" school: "A life that illuminates"* ....10
- *Jubilee of Professor, Academician Hamlet Isakhanli at Khazar University* ....16
- *Firangiz Nasirova.* Khazar is a stage (*Imitation to W.Shakespeare*) ....19
- International Conference Dedicated to the Jubilee of Professor, Academician Hamlet Isakhanli ....20
- Letter of Congratulations to Professor, Academician Hamlet Isakhanli (*ATBA - Jemal Yangin*) ....23
- *Musa Nabioghlu.* The formula of the unity of science and poetry (*in Azerbaijani*) ....24
- Exhibition on the occasion of the jubilee of professor, academician Hamlet Isakhanli at CSL ....27
- The Presentation of the Book "My Karabakh or the Karabakh Knot" at Baku Book Center ....28
- Letter of Congratulation to Professor, Academician Hamlet Isakhanli (*Azerbaijan Writers Union*) ....34
- Mammad Bayramoghlu. Many Happy Returns, Dear Hamlet Isakhanli! (*in Azerbaijani*) ....36
- Letter of Congratulation to Professor, Academician Hamlet Isakhanli (*UNEC-Adalat Muradov*) ....37
- *Rza.* What I Want to Say- What I can`t Say Or a Gift Which is Not Given (*in Azerbaijani*) ....38
- *Khuraman Naghızadeh.* Hamlet Isakhanli is a Stron Person! ....40
- Ganira Pashayeva, Chairperson of the Culture Committee of the Milli Majlis, Congratulates Professor, Academician Hamlet Isakhanli ....44
- Composer Elza Seyidjahan's Song "Baku", Composed to the Words of Hamlet Isakhanlı, was Also Performed at the Author's Concert ....47
- International Scientific Conference Dedicated to the 75th Anniversary of Professor, Academician Hamlet Isakhanli ....48

**Khazar University graduate appointed Deputy Minister of Defense Industry** ....52

**Closing ceremony of "Creative Spark" project** ....54

**Professor, Academician Hamlet Isakhanli at the Jubilee Event of People's Artist Elshan Mansurov** ....57

**Event Dedicated to "March 1 – World Civil Defense Day"** ....62

**Khazar University Staff Member at the 26th Eurasian Economic Summit** ....70

**"Letter of Appreciation" Presented to Khazar University** ....74

**Qaisar Sultana Receives Fulbright Specialist Award to Azerbaijan at Khazar University** ....75

**Nowruz Celebration for International Students** ....76

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



## İLAHİYYAT İNSTİTUTUNDA PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI İLƏ GÖRÜŞ

## MEETING WITH PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT INSTITUTE OF THEOLOGY

Fevralın 27-də Azərbaycan İlahiyyat İnstitutunun konfrans zalında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ilə görüş keçirildi. Görüşdən əvvəl çay süfrəsi ətrafında söhbət oldu.

On February 27, a meeting was held with the founder of Khazar University, the chairman of its Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, in the conference hall of the Azerbaijan Institute of Theology. Before the meeting they had a conversation at the tea table.





*İlkin Əlimuradov* *Ilkin Alimuradov*

"Gələcəyi günümüzdə qura bilsək..." adı ilə keçən tədbirdə İlahiyyat institutunun rəhbərliyi, əməkdaşları və tələbələri, Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları iştirak edirdilər.

Görüşün aparıcısı – institutun Dillər və ictimai fənlər kafedrasının müdiri, dosent İlkin Əlimuradov H. İsaxanlının həyat və fəaliyyəti haqqında qısa məlumat verdi. Sonra institutun rektoru Dr. Aqil Şirinov, institutun sabiq rektoru, Xəzər Universitetinin magistr məzunu, Milli Məclisin deputatı Dr. Ceyhun Məmmədov çıxış edərək, fizika-riyaziyyat elmləri doktoru, professor, şair, yazıçı,

*(Ardı səh.8-də)*




*Ceyhun Məmmədov   Jeyhun Mammadov*




*Aqil Şirinov   Agil Shirinov*

The administration, employees and students of the Institute of Theology, as well as administration and employees of Khazar University took part in the event.

The host of the meeting - head of the Department of Languages and Social Sciences of the institute, associate professor Ilkin Alimuradov gave brief information about the life and activities of H. Isakhanli. Then the rector of the institute Dr. Agil Shirinov, former rector of the institute, graduate

*(To be continued page 8)*



*Dilbər Zeynalova   Dilbar Zeynalova*



*Elnurə Əzizova   Elnura Azizova*



*Hamlet İsaxanlı*
*Hamlet Isakhanli*

publisist, tərcüməçi, elm, mədəniyyət və təhsil tarixi üzrə mütəxəssis, ədəbiyyat, dilçilik, tarix və fəlsəfəyə dair çoxsaylı əsərlərin müəllifi kimi H. İsaxanlının çoxşaxəli yaradıcılıq fəaliyyətindən geniş bəhs etdilər.

H. İsaxanlının həyat və yaradıcılığına aid qısametrajlı filmin nümayişindən sonra institutun İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova və Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalovanın çıxışları oldu. D. Zeynalova H. İsaxanlının "İkimizdən birimiz dünyaya gəlməsəydik..." və "Baş açmadım bu dünyadan" adlı şeirlərini də söylədi.

Görüşdə H.İsaxanlı geniş çıxış edərək, tələbəlik illərindən başlayaraq həyat və fəaliyyəti barədə ətraflı danışdı və şeirlərini oxudu. Tələbələrin təqdimatında onun poeziyasından nümunələr səsləndirildi. H. İsaxanlı tələbələrin suallarını cavablandırdı.

İnstitutun kitabxanasına H. İsaxanlının kitabları hədiyyə edildi.

Sonda institutun rektoru A. Şirinov H. İsaxanlını yubileyi münasibətilə təbrik etdi və ona hədiyyə təqdim olundu.

H.İsaxanlı görüşün təşkilinə və təbrikə görə təşəkkürünü bildirdi.

of Khazar University, MP Dr. Jeyhun Mammadov made speeches and talked about H. Isakhanli's multifaceted creative activity as doctor of physical and mathematical sciences, professor, poet, writer, publicist, translator, specialist in history of science, culture and education, literature and as the author of numerous works on linguistics, history and philosophy.

After demonstrating the short film about the life and creativity of H. Isakhanli, the dean of the Theology faculty of the institute, associate professor Elnura Azizova, the head of the Department of Languages and Literatures of Khazar University, associate professor Dilbar Zeynalovaya gave speeches. D. Zeynalova also recited H. Isakhanli's poems "If one of us had not been born..." and "I did not understand this world".

At the meeting, H.Isakhanli made a speech, spoke in detail about his life and activities starting from his student years and read his poems. During the students' presentation, examples of his poetry were played and questions were answered.

H.Isakhanli`s books were presented to the library of the institution.

In the end, the rector of the institute A.Shirinov congratulated H.Isakhanli on his anniversary and a gift was presented. H.Isakhanli thanked for the organization of the meeting and the congratulations.













*Hamlet İsaxanlı* *Hamlet Isakhanli*

## "DÜNYA" MƏKTƏBİNDƏ YUBİLEY TƏDBİRİ: "MƏCHULLARI AYDINLADAN ÖMÜR"

## JUBILEE EVENT AT "DUNYA" SCHOOL: "A LIFE THAT ILLUMINATES THE UNKNOWN"

Fevralın 28-də "Dünya" məktəbinin "İnciçiçəyi" Konfrans-Konsert Salonunda "Dünya" məktəbinin və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyinə həsr olunmuş "Məchulları aydınladan ömür" adlı ədəbi-bədii musiqili tədbir keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi, o cümlədən H. İsaxanlının qızı-universitetin Direktorlar və Qəyyumlar Şurasının üzvü və müşaviri Aygün Gardiner, universitetin əməkdaşları, "Dünya" məktəbinin rəhbərliyi və əməkdaşları, ölkənin görkəmli elm, ədəbiyyat və mədəniyyət xadimləri, ziyalılar iştirak edirdilər.

Foyedə H. İsaxanlının həyat və fəaliyyətinə aid sərgi nümayiş olunurdu.

Yubiley tədbiri Rəşid Behbudovun ifasında

*(Ardı səh.12-də)*

On February 28, a literary-artistic musical event, entitled "Life that illuminates the unknown" was held in the "Incichichayi" Conference-Concert Hall of "Dunya" school, dedicated to the 75th anniversary of the founder of "Dunya" school and Khazar University, the chairman of the Board of Directors and Trustees of the university, professor, academician Hamlet Isakhanli. The administration, including Aygun Gardiner, the member and advisor of the Board of Directors and Trustees of the university, university employees, "Dunya" school employees and administration, prominent literary and cultural figures of the country, and intellectuals participated in the event.

An exibition dedicated to the life and activities of H. Isakhanli was demonstrated in the lobby.

The jubilee event started with the song "My Azerbaijan" performed by Rashid Behbudov

*(To be continued page 12)*






*Aygün Gardiner oğlu Turan ilə* *Aygun Gardiner with her son Turan*



*Ramiz Rövşən, Rafiq Əliyev, Rüstəm Behrudi, Asif Rüstəmli*
*Ramiz Rovshan, Rafik Aliyev, Rustam Behrudi, Asif Rustamli*

"Azərbaycanım" (musiqisi Rauf Hacıyevin, sözləri Ənvər Əlibəylinin) mahnısı ilə başlandı.

Sonra aparıcı – məktəbin ingilis dili müəllimi Arzu Ömərova riyaziyyat elmindən söz açaraq, bütün ömrünü məchulları araşdırmağa həsr edən alim kimi H.İsaxanlının elmi fəaliyyətindən danışdı və mövzunu davam etdirərək

(music by Rauf Hajiyev, lyrics by Anvar Alibeyli).

Then the presenter, English language teacher of the school Arzu Omarova, spoke about H.Isakhanli `s scientific activities as a scientist who devoted his whole life to exploring the unknown. Then the presenter continued the





*Fuad Qarayev*
*Fuad Garayev*



*Pünhan İsmayıl, Ceyhun Məmmədov, Ramiz Həsənoğlu*
*Punhan Ismayil, Jeyhun Mammadov, Ramiz Hasanoglu*

bildirdi ki, "Dünya" məktəbi Ümumrespublika Riyaziyyat Olimpiadası keçirmiş və qaliblər məktəb tərəfindən diplom və sertifikatla təltif olunmuşlar. İstərdik ki, gələcəyin riyaziyyatçılarına mükafatları görkəmli riyaziyyatçı alim olaraq Hamlet İsaxanlı təqdim etsin. Bu, onların da həyatında unudulmaz anlara, xoş xati-

*(Ardı səh.14-də)*

topic and said that "Dunya" school held the All-Republic Mathematics Olympiad and the winners were awarded diplomas and certificates by the school. We would like Hamlet Isakhanli to present the awards to the mathematicians of the future as an outstanding mathematician scientist. This will become unforgettable moments

*(To be continued page 14)*





rələrə çevrilər."

H. İsaxanlı şagirdlərə diplom və sertifikatları təqdim etdi, onlara uğurlar arzuladı.

Sonra şagirdlər sözləri Hamlet İsaxanlının, musiqisi Nailəxanım İsayevanın olan "İnciçiçəyi", "Gözəldir", "Külək və qız" mahnılarını hazırladıqları müvafiq rəqslərlə ifa etdilər.

Məktəbin musiqi müəllimi, Beynəlxalq mü-

and pleasant memories in their lives. H. Isakhanli presented diplomas and certificates to the students and wished them success.

Then the students performed the songs "Incichicheyi" ( "Lily of the valley"), "Gozeldir" ("It's beautiful"), "Kulek va giz ("Wind and Girl") with lyrics by Hamlet Isakhanli and music by Nailakhanim Isayeva, and the dances they made





*"Dünya" məktəbinin hədiyyəsi*

*The gift of "Dunya" school*

sabiqələr laureatı, bəstəkar-pianoçu Zərif Kərimovanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Baş açmadım bu dünyadan" adlı romansı təqdim olundu.

Tədbirin qonaqları - Xalq şairi Ramiz Rövşən, Xalq artisti Ramiz Həsənoğlu, akademik Rafiq Əliyev, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Elm və Təhsil Nazirliyinin sektor müdiri Fuad Qarayev, filologiya elmləri doktoru, professor Asif Rüstəmli, şair Rüstəm Behrudi və valideyn Pünhan İsmayıl H. İsaxanlı haqqında ürək sözlərini söylədilər, onu təbrik etdilər.

"Dünya" Ana Məktəbinin balaçaları, "Dünya" məktəbi və Xəzər Universitetinin kollektiv rəqs ansamblı tərəfindən müxtəlf rəqslər ifa olundu.

Aparıcı bildirdi ki, "Hamlet müəllim haqqında qonaqların ürək sözlərini dinlədik. Amma uşaqların da onun haqqında fikirləri var" və "Biz Hamlet müəllim haqqında nə düşünürük?" adlı videoçarx nümayiş etdirildi.

Tədbirin sonunda H. İsaxanlı çıxış etdi və iştirakçıları dərindən duyğylandıran "Gedin deyin anama" şeirini söylədi.

Şagirdlər yubilyarı gül-çiçəklə təbrik etdilər, ona "Dünya" məktəbinin hədiyyəsi təqdim olundu.

for them.

The romance "I didn't understand this world" composed by the school's music teacher, laureate of international competitions, composer-pianist Zarif Karimova with lyrics by Hamlet Isaxanli, was presented.

Guests of the event - People's Poet Ramiz Rovshan, People's Artist Ramiz Hasanoglu, Academician Rafik Aliyev, Member of the Milli Majlis Jeyhun Mammadov, Sector Manager of the Ministry of Science and Education Fuad Garayev, Doctor of Philological Sciences, Professor Asif Rustamli, Poet Rustam Behrudi and parent Punhan Ismayil said heartfelt words about H.Isakhanli and congratulated him.

Children of "Dunya" kindergarten, collective dance ensemble of "Dunya" school and Khazar University performed various dances.

After listening to the heartfelt words of the guests about Hamlet Isakhanli, the children's opinions about him were also heard. The video "What do we think of Hamlet Isakhanli?" was shown.

After the presenter asked Hamlet Isakhanli to end the meeting with his poem, he read the poem "Go and tell my mother" which deeply moved the participants.

Pupils gave flowers to the jubilee, he was presented with a gift from "Dunya" school.



# XƏZƏR UNİVERSİTETİNDƏ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ YUBİLEYİ

# JUBILEE OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT KHAZAR UNIVERSITY

Martın 1-də Xəzər Universitetində professor, akademik Hamlet İsaxanlının yubileyi qeyd olundu. Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının üzvü  və müşaviri Aygün Gardiner`in və universitet rəhbərliyi, fakültə dekanları, departament müdirləri və əməkdaşların iştirak etdiyi tədbiri  universitetin rektoru dosent İradə Xəlilova açaraq, yubilyarı universitet kolllektivi adından təbrik etdi, ona çoxsahəli elmi və ədəbi fəaliyyətində uğurlar arzuladı, gül dəstəsi, hədiyyə təqdim etdi.

İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova çıxışında yubilyara

On March 1, Khazar University celebrated the anniversary of professor, academician Hamlet Isakhanli. The event, which was attended by the member and advisor of the Board of Directors and Trustees, the administration of the University, faculty deans, heads of departments and employees, was opened by the Rector of the University, Associate Professor Irada Khalilova, who congratulated the anniversary celebrant on behalf of the University staff, wished him success in his many-sided scientific and literary activities and presented him with a gift and a bunch of flower.

Firangiz Nasirova, the head teacher of the Department of English Language and Literature,

həsr etdiyi ingilis dilindəki şeirindən bir parça söyləyərək, H. İsaxanlını qurucu, yaradıcı şəxsiyyət kimi tərənnüm etdiyini nəzərə çatdırdı.

H. İsaxanlı yubiley tortunu kəsəndən sonra kollektivə müraciət etdi. Xəzər Universitetinin və "Dünya" məktəblərinin timsalında səmimi, yekdil, güclü bir ailənin yarandığını söylədi və bu ailənin gələcək uğurlarına da əmin olduğunu və kollektivə təşəkkürünü bildirdi.

read an excerpt from her poem in English in her speech dedicated to the anniversary celebrant, and emphasized that she glorified H.Isakhanli as a founder and creative person.

H.Isakhanli addressed the University staff after cutting the anniversary cake. He mentioned that a sincere, close-knit and strong family was formed in the image of the Khazar University and "Dunya" School, and expressed confidence in the future success of this family and gratitude to the staff.





# KHAZAR IS A STAGE

*Imitation to W.Shakespeare*

Khazar is a stage
And all the men in residence are players;
They have their exeats and examinations.
And **Hamlet** in his time plays many parts.
At first, hardworking Freshman
Stumbling and fighting in his tutor`s rooms.
And then the aspiring Classman, with colored tie
And shy, in deep thoughts, creeping along.
Unlike to all the Schools. Then at the Union
Defending his students, demanding his rights.
And then the lover. Sighing like furnace, with
A woeful ballad
Made to his lovely Khazar. Then a soldier
Full of faithful oaths, seeking for reputation.
And then the justice, with modern instances
and demonstration.
With his eyes, penetrating even walls.
Feeling all events, with spectacles on nose,
Well saved fragrance, his youthful pose.
And so, He plays His part. The seventh age shifts
He`s got the whole Khazar in his hands!
And young Khazar grows fast, giving him.
more charm and gifts!

**Firangiz Nasirova,**

*Khazar University,*
*English language and literature department*



*Hamlet İsaxanlı Hamlet Isakhanli*

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ YUBİLEYİNƏ HƏSR OLUNAN BEYNƏLXALQ KONFRANS

# INTERNATIONAL CONFERENCE DEDICATED TO THE JUBILEE OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

Martın 1-2-də Xəzər Universitetinin Mərmər salonunda İKSAD-ın (İqtisadi İnkişaf və Sosial Tədqiqatçılar İnstitutu) təşkilatçılığı ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyinə həsr olunan beynəlxalq elmi konfrans keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, müxtəlif elm sahələrinin mütəxəssisləri iştirak edirdilər.

Konfransın ilk geniş iclası H.İsaxanlının yubileyinə həsr olundu. İKSAD-ın baş koor-

On March 1-2, a two-day international scientific conference was held dedicated to the 75th anniversary of the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, organized by IKSAD (Institute for Economic Development and Social Research) in the Marble Hall of Khazar University. The event was attended by the administration and staff of the University, and specialists from various fields of science.

The first large meeting of the conference was devoted to the anniversary of H.Isakhanli.



*Mustafa Latif Emek*



dinatoru Əlvan Cəfərov konfransı açaraq, ilk sözü H. İsaxanlıya verdi. H. İsaxanlı elm tarixi və elmin bəşəriyyətə töhfələri mövzusunda çıxış etdi.

İKSAD-ın prezidenti Mustafa Latif Emek onlayn formatda H. İsaxanlını yubileyi münasibətilə təbrik etdi və ona uğurlar arzuladı.

Xəzər Universitetinin rektoru İradə Xəlilova

*(Ardı səh.22-də)*

The conference was opened by IKSAD Chief Coordinator Alvan Jafarov, who gave floor to H.Isakhanli. H.Isakhanli delivered a speech on the history of science and the contribution of science to humanity.

IKSAD President Mustafa Latif Emek congratulated H.Isakhanli on his jubilee online and wished him every success.

The rector of the Khazar University, Irada

*(To be continued page 22)*



*Əlvan Cəfərov* *Alvan Jafarov*



H. İsaxanlı haqqında təbrik nitqi söylədi və ona universitet adından hədiyyə hazırlandığını bildirdi. Universitetin Memarlıq və dizayn departamentinin müəllimi Həsənağa Həsənov H. İsaxanlının yubileyinə həsr etdiyi "Poeziya işığında" adlı qrafik rəsmini H. İsaxanlıya təqdim etdi.

İKSAD-ın baş koordinatoru Əlvan Cəfərov da H. İsaxanlıya və İ. Xəlilovaya İKSAD-ın hədiyyələrini çatdırdı.

Konfrans hibrid formatda işini davam etdirmişdir.

Khalilova, delivered a congratulatory speech to H.Isakhanli, expressing that a gift had been prepared for him on behalf of the University. Lecturer in the Department of Architecture and Design of the University Hasanagha Hasanov presented H.Isakhanli with a graphic painting "In the Light of Poetry", dedicated to the anniversary of H.Isakhanli.

IKSAD Chief Coordinator Alvan Jafarov presented IKSAD gifts to H.Isakhanli and I.Khalilova.

The conference continued to work in a hybrid format.



*İradə Xəlilova Irada Khalilova*

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLIYA TƏBRİK MƏKTUBU

## AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ

**Xəzər Universiteti**
**Direktorlar və Qəyyumlar Şurasının sədri**
**cənab Hamlet İsaxanlı**

**Hörmətli Hamlet müəllim,**

Sizi 1 mart ad gününüz münasibətilə təbrik edir, uzun ömür, ailə səadəti və cansağlığı arzulayır, işlərinizdə müvəffəqiyyətlər diləyirik.

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) ilə Sizin aranızda ənənəvi əməkdaşlıq, dostluq ənənələri mövcuddur. Şübhəsiz, bu əməkdaşlığın inkişafında Sizin uğurlu fəaliyyətinizin böyük rolu var.

Bir ömrün yaşanmasının əsas məqsədi olan insanlığa və ölkəyə xidmət edərək qədəm basdığınız bu yaşınızı bir daha ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**Cemal Yangın**
*İdarə Heyətinin sədri*
*1 mart 2023-cü il*

# LETTER OF CONGRATULATIONS TO PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

## AZERBAIJAN TÜRKIYE BUSINESS ASSOCIATION

**Khazar University**
**Chairman of the Board of Directors and Trustees**
**Mr. Hamlet Isakhanli**

**Dear Mr. Isakhanli,**

We congratulate you on your birthday on March 1, wish you long life, family happiness and good health, and success in your work.

There are well-established traditions of cooperation and friendship between you and the Azerbaijan Türkiye Business Association (ATBA) . Undoubtedly, your successful activity is of great importance for the development of this cooperation.

I heartily congratulate you once again on this age that you have entered serving humanity and the country, which is main purpose of a life, I wish you good health, long life and success.

*Sincerely,*

**Jemal Yangin**
*Chairman of the Board*
*March 1, 2023*

525-ci qəzet

# ELMLƏ POEZİYANIN VƏHDƏT DÜSTURU

*ALİM VƏ ŞAİR HAMLET İSAXANLININ 75 YAŞINA*



*"525-ci qəzet"in 1 mart 2023-cü il tarixli nömrəsində professor, akademik Hamlet İsaxanlının yubileyi münasibətilə dərc olunmuş məqaləni oxucularımıza təqdim edirik.*

Hamlet İsaxanlı! Bu ad Azərbaycanda hər kəsə yaxşı tanışdır. O, beynəlxalq aləmdə də kifayət qədər tanınır - görkəmli riyaziyyatçı alim və Azərbaycanda özəl təhsilin qurucusu kimi!

Bəli, Hamlet İsaxanlı riyaziyyatçı professordur, bununla belə, o, həm də ədəbiyyat və tarix bilicisi, filosof, təhsil qurucusu və təşkilatçısı, şair, yazıçı, publisist, tərcüməçi və əsl pedaqoqdur. Sadalanan elm və sənət sahələrinin yalnız biri ilə məşğul olmuş olsaydı belə, o, yenə də eyni şöhrəti qazanardı. Görkəmli ədəbiyyatşünas da ola bilərdi, tarixçi alim də, filosof da... Və mən mübaliğəsiz deyə bilərəm ki, ədəbiyyat, tarix və fəlsəfə sahəsindəki dərin biliyi və araşdırmaları ilə bəzi sadəcə "professor" diplomu olanları geridə qoyur. Ölkəmizdə ilk özəl ali təhsil ocaqlarından olan Xəzər Universiteti kimi sorağı Azərbaycanın hüdudlarını çoxdan aşmış bir universitetin yaradılması və ilk gündən burada tədrisin Avropa standartlarına uyğun olaraq aparılması onun adıyla bağlıdır.

Hamlet İsaxanlı həm də şairdir. Hələ uşaqlıq və gənclik illərindən şeir yazsa da, onları çap etdirməkdə maraqlı olmayıb. Universitetdə təhsilini başa vurduqdan sonra ömrünü elm yoluna həsr etsə də, poeziyadan da ayrı düşməyib. Müxtəlif janrlarda şeirlər yazmaqla yanaşı, rus, ingilis və fransız şairlərinin əsərlərini orijinaldan Azərbaycan türkcəsinə çevirib. Azərbaycanla yanaşı, Rusiya, Gürcüstan, Çin və İranda (Təbrizdə) şeir kitabları nəşr olunub. Lirik şeir və poemaları əsasında gözəl mahnılar yazılıb və musiqili tamaşalar hazırlanıb.

"Hamlet İsaxanlının şair kimi yaradıcılığının əsas qayəsi və səciyyəsi nədir" sualına

ən yaxşı cavabı məncə, fəlsəfə elmləri doktoru, professor, ən əsası, bu gün özü Haqq dünyasında olsa da, nurlu və xeyirxah bir insan kimi əziz xatirəsi hər zaman bizimlə olan Camal Mustafayev verib: "Hamlet İsaxanlı poeziyasının qısa vaxtda bu qədər geniş əks-səda doğurmasını şərtləndirən nədir? Bu suala qısaca cavab vermək olar. Müxtəlif janrlı şeirlərdə bədii axtarışların, poetik fikrin orijinallığıdır. Burada məhəbbətdən başlamış, dünya müəmmalarına qədər mövzuların təcəssümü, məna, üslub xüsusiyyəti fərqlənir. Hamlet İsaxanlının yaradıcılıq sirrini necə açmaq olar? O, az sözdə vəznli fikir ifadə etmək ustalığına malikdir.

Hamlet İsaxanlı poeziyası, sadəcə, zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır".

Bütün şairlər kimi, Hamlet İsaxanlının yaradıcılığında da poeziyanın əzəli və əbədi mövzusu olan sevgi, məhəbbət, saf məhəbbətin vüsalı və bəzən də vüsala yetə bilməyən sevgilər mühüm yer tutur. Ancaq mövzu köhnə - qədim olsa da, Hamlet İsaxanlının yanaşması yenidir, təkrarçılıqdan uzaqdır. Bu mövzuda yazdığı hər şeir fikrin orijinallığı ilə seçilir - alim-şair və şair-alim bədii-fəlsəfi təfəkkürünün süzgəcindən keçən misralar oxucunu öz sehrinə bələyir. Şairin bu qənaəti ilə istər-istəməz razılaşmalı olursan ki, "vurğun könül hər gün bir hava çalmaz", "ağılla könülün əlbir" olduğu sevgilər daha uzunömürlü olur.

Onun şair qənaəti bundan ibarətdir ki, sevgi ürəyə bağlı bir işdir, ürəyə isə hökm etmək olmaz və eşq odunda qovrulmayan kəs sevmək səadətinin nə olduğunu bilə bilməz. Deyir ki, "sevgidə möcüzəyə bel bağlama", "hər sevən yetməz ki, kama..." Çünki

*Tanrıdan gəlir sevgilər,*
*Zəhmətin bəhrəsi deyil...*

Böyük saz-söz ustadı Aşıq Ələsgər deyirdi: "Canım gözəllərin yol qurbanıdı". Hamlet İsaxanlı isə şeirinin qəhrəmanı olan gözələ "ayağının altında yolunam", "tapdala, döy məni, söy də bir ağız", amma "yoldan kənar addım atma", - deyir.

Ölənədək sevgisinə sadiq qalacağını, sevgilisinin qulu olacağını bəyan edən şairin ondan yalnız bircə təvəqqesi var:

*Sağlığımda məni buraxma yalqız,*
*Ölsəm, qaşını da çatma, sən Allah!*

Alim olmaq çətin deyil, yetər ki, zəhmətə qatlaşa biləsən. Şair olmaq da çətin deyil - əgər Tanrının verdiyi istedad və bu istedadı reallaşdırmaq üçün güc, inadkarlıq və səbr varsa. Şair Hamlet İsaxanlı da haqlı olaraq deyir ki:

*Təbiətə aşiq ol,*
*Oxu, yaz, yarat bol-bol.*
*Gələcəyə gedən yol*
*Düşüncədi, ağıldı..*

Bəs, alim və şair, yazıçı, publisist Hamlet İsaxanlı bunca uğurları əldə etmək üçün

*(Ardı səh.26-da)*

həyatın hansı yollarından keçib? Riyaziyyatın dərin məntiqinə və poeziyanın hikmətinə söykənən bu ucalıq öz qüdrətini, gücünü haradan alır? Bu sualın cavabını onun şeirlərində tapırıq:

*Uşaqlıqdan düşünmək olub peşəm,*
*Kitablardan toz yemişəm*
*Və xəyallara dalmışam -*
*Yolum haraya düşəcək,*
*Kim kiminlə görüşəcək -*
*Onu mən özüm demişəm.*
*Nyutonla söhbət edib,*
*Nizamidən dərs almışam.*
*Dostum olub neçə ədib -*
*Şekspirdən Tolstoya.*
*Mövlananı bir kəz duyan*
*"Məsnəvi"dən çətin doya.*

Amma bunca mütaliə, bunca zəhmət Hamlet İsaxanlını adlarını çəkdiyi dahilərin heç birinin yolunu təkrarlamağa sövq etməyib, daha doğrusu, o, başqalarının açdığı yolla getməyib: böyük dühalardan dərs alaraq, həyatda öz yolunu tapıb. Özünün də dediyi kimi, "nə Tolstoyçu olmayıb, nə də Marksist". Və bu şeirdən çıxan bir məntiqi nəticə də odur ki, klassiklərin də dediyi kimi, istedad zəhmətdən güc almayanda sönüb gedə bilər.

Mən bu yazıda alim-şair və şair-alim Hamlet İsaxanlının yalnız məhəbbət mövzusundakı bir neçə şeirindən nümunə gətirdim. Ona görə yox ki, başqa mövzularda şeirləri yoxdur. Əksinə, onun Vətən, vətənpərvərlik, təbiət və zaman, həyat-ölüm fəlsəfəsi və bütün zamanlarda şairlərin müraciət etdiyi digər mövzularda alim təfəkkürü ilə şair təxəyyülünün sintezindən yaranan və özünəməxsus fəlsəfi-poetik baxışını əks etdirən şeirləri çoxdur. Sadəcə, burada məqsəd bütövlükdə onun poetik yaradıcılığından söhbət açmaq deyil. Bir də, bir şairin əsl söz adamı kimi ürək çırpıntılarını duymaq, qəlbinin səsini eşitmək istəyirsənsə, məncə, əvvəlcə onun sevgi mövzusundakı şeirlərini oxumaq lazımdır - Vətənə sevgi, millətə sevgi, yurda, el-obaya, ata-anaya sevgi və bir də gözələ sevgi!

Onun sevgi şeirlərindən həm də ona görə söz saldıq ki, anadan olmasının 75 illik yubileyi münasibətilə biz də ona öz sevgi və sayğımızı bildirək.

Ömrünün müdriklik və yaradıcılığının məhsuldar dövrünü yaşayan dəyərli ziyalımızı ürəkdən təbrik edir, ona sağlam və uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Musa Nəbioğlu**
*Əməkdar mədəniyyət işçisi*

***https://525.az/news/215425-elmle-poeziyanin-vehdet-dusturu***




# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ YUBİLEYİ MÜNASİBƏTİLƏ MEK-DƏ SƏRGİ

# EXHIBITION ON THE OCCASION OF THE JUBILEE OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT CSL

Martın 1-də AMEA Mərkəzi Elmi Kitabxanasında (MEK) fizika-riyaziyyat elmləri doktoru, professor, ictimai xadim, şair, yazıçı, publisist, tərcüməçi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının yubileyi münasibətilə kitab sərgisi təşkil edilmişdi.

Sərgidə çox geniş yaradıcı fəaliyyətlə məşğul olan H. İsaxanlının "Poetik tərcümələr", "Bu da bir həyatdı", "Azərbaycan sevgi poeziyası", "Müasir dünyada ali təhsil sistemində nələr baş verir", "The Azerbaijan language", "Mənim Qarabağım və ya Qarabağ düyünü" kimi dərslik, monoqrafiya və poetik əsərləri, tərcümələri, həyat və fəaliyyətindən bəhs edən "Hamlet İsaxanlı. Alim və qurucu ömrü" kitabı nümayiş etdirilirdi.

Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzi (KİM) bu münasibətlə MEK-ə Hamlet İsaxanlının müəllifi olduğu və Xəzər Universitetinin nəşrlərindən ibarət 36 adda kitab, 5 adda jurnal hədiyyə edib.

Qeyd edək ki, sərgi 15 gün ərzində davam etmişdir. *Bayraqdar.info* saytı bu barədə xəbər yayımlayıb:

On March 1, a book exhibition was organized in the Central Scientific Library (CSL) of ANAS on the occasion of the jubilee of the doctor of physics and mathematics, professor, public figure, poet, writer, publicist, translator, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli.

The exhibition presents textbooks, monographs and poetic works, translations such as "Poetic translations", "This is also a life", "Science and art assembly", "Azerbaijani love poetry", "What is happening in the higher education system in the modern world", "The Azerbaijan language", "My Karabakh or the Karabakh knot" , and "Hamlet Isakhanli. The life of a scientist and founder" , a book about the life and activities of H. Isakhanli, who is engaged in a wide range of creative activities.

Khazar University Library Information Center (LIC) presented CSL with 36 books, 5 journals authored by H.Isakhanli and published by khazar University.

Note that the exhibition lasted for 15 days.

The website *Bayragdar.info* published a news about it:

***https://www.bayraqdar.info/2023/03/02/gork%c9%99mli-elm-adami-v%c9%99-ictimai-xadimin-75-illiyin%c9%99-s%c9%99rgi/***





*Günel Anarqızı*

*Gunel Anargizi*

## BAKI KİTAB MƏRKƏZİNDƏ "MƏNİM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ" KİTABININ TƏQDİMATI

## THE PRESENTATION OF THE BOOK "MY KARABAKH OR THE KARABAKH KNOT" AT BAKU BOOK CENTER

Martın 2-də Bakı Kitab Mərkəzində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının Qarabağa, tarix boyu onun ətrafında baş verən siyasi-ictimai hadisələrin mahiyyətinə, Azərbaycan və erməni xalqları arasında münasibətlər tarixinə həsr olunmuş "Mənim Qarabağım

On March 2, the literary and musical presentation of the book by the founder of Khazar University, chairman of the Board of Directors and Trustees of Khazar University, professor, academician Hamlet Isakhanli entitled "My Karabakh or Karabakh Knot", which is dedicated to Karabakh, the essence of the political and social events that took place around



*Nəzakət Teymurova:"Qarabağ şikəstəsi*

*Nazakat Teymurova: "Karabakh shikastesi"*



*Anar, Hamlet İsaxanlı*

və ya Qarabağ düyünü" kitabının ədəbi-musiqili təqdimatı keçirildi. H.İsaxanlının yaradıcılıq fəaliyyətini əks etdirən kitabların sərgisi də təşkil olunmuşdu.

Tədbirdə H.İsaxanlının ailə üzvləri, Milli Məclisin deputatları, ölkənin elm, ədəbiyyat və incəsənət xadimləri, ziyalılar, media mənsubları iştirak edirdilər.

*(Ardı səh.30-da)*

*Anar, Hamlet Isakhanli*

it throughout history, and the history of relations between the Azerbaijani and Armenian peoples, was held. An exhibition of books reflecting the creative activity of H. Isakhanli was also organized.

Family members of H. Isakhanli, MPs, figures of science, literature and art of the country, intellectuals, members of the media took part in the event.

Opening the event, the director of the Baku Book

*(To be continued page 30)*



*İsa Həbibbəyli, Hamlet İsaxanlı* *Isa Habibbayli, Hamlet Isakhanli*



*Rəşad Məcid* *Rashad Majid*

Tədbiri Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı açaraq iştirakçıları salamladı, mühüm bir kitabın təqdimatının keçiriləcəyini bildirdi.

Təqdimat mərasiminin aparıcısı, "Dünya" məktəbinin əməkdaşı Afaq Qəmbərova ilk sözü musiqiyə verdi və Xalq artisti Nəzakət Teymurovanın ifasında muğam triosu və Xəzər Universitetinin Kamera orkestrinin müşayiəti ilə möhtəşəm "Qarabağ şikəstəsi" səsləndi.

Qeyd edək ki, tədbirin musiqi proqramını Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi



*Azər Qismət* *Azer Gismat*

Center, Gunel Anargizi, greeted the participants and announced that an important book's presentation would be held.

The host of the presentation ceremony, Afag Gambarova, an employee of "Dunya" school, gave the first word to the music, and the magnificent "Karabakh shikastesi" was played by People's Artist Nazakat Teymurova, accompanied by the mugham trio and the Khazar University Chamber Orchestra.

Note that the musical program of the event was performed by the Chamber orchestra of the university under the leadership of the head of the Music and art department of Khazar University, honored teacher, well-known pianist Zulfiyya Sadighova.

People's writer, Azernaijani Writers' Union



*Elçin Şıxlı* *Elchin Shikhli*

chairman Anar, who made the first speech at the event, stated that many books have been written about Karabakh- both in the past and in the present, and spoke about the importance of the book "My Karabakh or the Karabakh Knot" in this context. He noted that this book contains different perspectives on Karabakh.

Also, it is possible to find detailed information about the educators from Karabakh. When I read the book, I thought that Hamlet Isaxanli was one of those who followed the path of those enlighteners. That enlightener is one of those who brought the light like a torch to these days.

The establishment of Khazar University is the proof of what I said". Anar presented H.Isakhanli with the Honorary Decree of the Union of Writers.



*Ülkər Hüseynova*
*Ulkar Huseynova*



*Tural Gəncəliyev*
*Tural Ganjaliyev*

ilə universitetin Kamera orkestri icra edirdi.

Tədbirdə ilk çıxış edən Xalq yazıçısı, AYB sədri Anar Qarabağa aid həm keçmiş, həm də indiki zamanda çoxlu kitablar yazıldığını bildirərək, bu fonda "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının əhəmiyyətindən danışdı. Qeyd etdi ki, "Bu kitabda Qarabağa müxtəlif yöndən baxışlar var. Həmçinin, Qarabağdan çıxan maarifçilər barədə də ətraflı məlumatlara

*(Ardı səh.32-də)*

President of ANAS Isa Habibbayli mentioned in his speech that there are new research materials in the book "My Karabakh or the Karabakh Knot". Karabakh is our most honorable and responsible topic. In the book, quotes and facts from the works of non-Azerbaijani authors, as well as from sources related to the history of Karabakh in general, are included in the circulation of Azerbaijan Karabakhname for the first time. This book is not only a scientific-

*(To be continued page 32)*



*Alim Qasımov, Fərqanə Qasımova* *Alim Gasimov, Fargana Gasimova*



*Xalq artisti Ramiz Həsənoğlu, Ülkər İsayeva, Aygün Gardiner*
*People`s artist Ramiz Hasanoglu, Ulker Isayeva, Aygun Gardiner*

rast gəlmək mümkündür. Kitabı oxuyanda fikirləşdim ki, həmin maarifçilərin yolunu davam etdirənlərdən biri Hamlet İsaxanlıdır. O, maarifçi işığını məşəl kimi bu günlərə gətirənlərdən biridir. Xəzər Universitetinin yaranması dediklərimin sübutudur". Anar H. İsaxanlıya Yazıçılar Birliyinin Fəxri Fərmanını təqdim etdi.

AMEA-nın prezidenti İsa Həbibbəyli çıxışında bildirdi ki, "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabında yeni araşdırma materialları mövcuddur.

Qarabağ bizim ən şərəfli, məsuliyyətli mövzumuzdur.

Kitabda azərbaycanlı olmayan müəlliflərin əsərlərindən, həm də ümumiyyətlə Qarabağın tarixinə aid olan mənbələrdən gətirilmiş sitatlar, faktlar ilk dəfə Azərbaycan Qarabağnaməsinin dövriyyəsinə daxil olur.

Bu kitab təkcə elmi -publisistik əsər deyil, həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatında sənədli bədii nəsrin mükəmməl nümunəsidir." İ. Həbibbəyli H. İsaxanlıya AMEA-nın təşəkkürnaməsini təqdim etdi.

Digər çıxış edənlər - Mətbuat Şurasının sədri Rəşad Məcid, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Milli Məclisin deputatı Tural Gəncəliyev, tarixçi alimlər Solmaz Tohidi və Ül-

journalistic work, but also a perfect example of documentary prose in the Azerbaijani literature of the period of independence." I.Habibbayli presented the letter of thanks of ANAS to H. Isakhanli.

Other speakers – Chairman of the Press Council Rashad Majid, Chairman of the Union of Journalists of Azerbaijan Elchin Shikhli, MP Tural Ganjaliyev, historian scientists Solmaz Tohidi and



*Mətanət Ağamirli* *Matanat Aghamirli*



kər Hüseynova, əməkdar jurnalist Mətanət Ağamirli, yazıçı-jurnalistlər Azər Qismət və Nicat Həşimzadə "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının müxtəlif maraqlı və orijinal cəhətlərindən danışdılar.

Çıxış edənlər H.İsaxanlını yubileyi münasibətilə təbrik etdilər, çoxşaxəli fəaliyyətində ona uğurlar arzuladılar.

Sonda H. İsaxanlı çıxış edərək, kitabın ideyasının yaranması və yazılması prosesindən danışdı.

Tədbir boyu Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımovanın, Kamera orkestrinin ifasında musiqi nömrələri səsləndi.

Musiqi ilə başlanan tədbir musiqi ilə də - sözləri Hamlet İsaxanlının, musiqisi Nailəxanım İsayevanın olan "Gözəldir" mahnısının Əməkdar artist İlahə Əfəndiyeva tərəfindən ifası ilə sona çatdı.

Ölkənin bir sıra saytları tədbir haqqında xəbər yayımlamışlar:

Ulkar Huseynova, honored journalist Matanat Aghamirli, writers-journalists Azer Gismat and Nijat Hashimzade talked about various interesting and original aspects of the " My Karabakh or Karabakh Knot".

The speakers congratulated H. Isakhanli on his jubilee and wished him success in his multifaceted activities. In the end, H. Isakhanli delivered a speech and talked about the process of creating and writing the idea of the book. During the event, songs were performed by People's Artist Alim Gasimov and Honored Artist Fargana Gasimova, and the Chamber Orchestra.

The event, which started with music, ended with music – the song "Gözeldir"("It is beautiful") written by Hamlet Isakhanli and music by Nailekhanim Isayeva which was performed by the Honored artist Ilaha Efendiyeva.

A number of websites of the country published news about the event:

*https://news365.az/2023/03/03/hamlet-isaxanlinin-m%C9%99nim-qarabagim-v%C9%99-ya-qarabag-duyunu-kitabi-t%C9%99qdim-olundu-foto/*
*https://publika.az/news/art/439419.html*
*https://sia.az/az/news/literature/1039290.html*
*https://publika.az/news/art/439419.html*
*https://www.baki-xeber.com/sosial/163179.html*
*https://ednews.net/az/news/culture/579333-hamlet-isaxanlinin-kitab-teqdimati-oldu və s.*



# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLIYA TƏBRİK MƏKTUBU

**Hörmətli Hamlet müəllim!**

Sizi - tanınmış yazıçı və alimi 75 illiyiniz münasibətilə təbrik edirik.

Siz 1965-ci ildə orta məktəbi qızıl medalla bitirib, Bakı Dövlət Universitetinin (indiki BDU-nun) Mexanika-riyaziyyat fakültəsinə qəbul olunmuş, 1970-ci ildə buranı fərqlənmə diplomu ilə bitirmisiniz. 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu tərəfindən M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Mexanika-riyaziyyat fakültəsinin aspiranturasına oxumağa göndərilmiş, 1973-cü ildə dissertasiya işini müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almısınız.

1973-1983-cü illər ərzində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, SSRİ Elmlər Akademiyasının V.İ.Steklov adına Riyaziyyat İnstitutunda, Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Bakı Dövlət Universitetində çalışmış, elmi-tədqiqatla və pedaqoji işlə məşğul olmusunuz. Sonra Azərbaycan Dövlət Neft Akademiyası və Leninqrad Maliyyə və İqtisad İnstitutunun Bakı filialında professor və kafedra müdiri kimi fəaliyyət göstərmisiniz.

Keçmiş SSRİ, ABŞ, Böyük Britaniya, Kanada və Almaniya kimi ölkələrin nüfuzlu elmi jurnal və məcmuələrində elmi-tədqiqat əsərləriniz dərc olunub. 1983-cü ildə Moskvada SSRİ Elmlər Akademiyası V.İ.Steklov adına Riyaziyyat İnstitutunda "Çoxparametrli spektral nəzəriyyənin bəzi məsələləri" mövzusunda dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almısınız; bir qədər sonra professor adına layiq görülmüsünüz.

1991-ci ildə Azərbaycanda ingilisdilli universitetin yaranmasına təşəbbüs göstərmiş, 1991-ci ildə rəsmi status alan bu ali məktəbi təsis etmiş, Azərbaycanın ilk özəl universitetinin qurucu rektoru olaraq fəaliyyətə başlamısınız. Bir qədər sonra yeni – Xəzər Universiteti adını alan bu elm, təhsil və mədəniyyət ocağı Azərbaycanın dünyada tanınan universitetlərindən birinə çevrilmişdir.

Siz müasir çoxparametrli spektral nəzəriyyənin yaradıcılarından biri sayılırsınız. Riyaziyyatın riyazi fizikadan qaynaqlanan bu çox mühüm sahəsində dərin tədqiqatlar aparan ilk sovet riyaziyyatçısı kimi adınız elm tarixinə düşmüşdür.

Siz Azərbaycanda və onun hüdudlarından kənarda təkcə alim və elm-təhsil təşkilatçısı kimi deyil, həm də şair, yazıçı kimi də tanınırsınız. Gənclik illərindən şeir yazmış, lakin onları uzun müddət çap etdirməmisiniz. Azərbaycanda, Rusiyada, Çində, İranda, Türkiyədə, Gürcüstanda, Pakistanda, Finlandiyada və digər ölkələrdə şeir kitablarınız nəşr olunmuşdur. Şeirləriniz rus, ingilis, Çin, gürcü, eston, finland, türk və digər dillərə tərcümə olunmuşdur.

Yaradıcılığınıza tərcümə işi də daxildir. V.A.Jukovski, F.Baratinski, F.İ.Tütçev, A.Fet, S.Yesenin, N.Qumilyov, A.Axmatova, A.Axundova, C.Q.Bayron, V.Bleyk, R.Herrik və G.De Nerval kimi rus, ingilis və fransız şairlərinin şeirlərini orijinaldan Azərbaycan dilinə çevirmisiniz.

Şeirlərinizə xeyli sayda musiqi bəstələnmişdir.

Ədəbi ictimaiyyətin maraqla qarşıladığı "Təzadlar", "Bu da bir həyatdı", "Dördlüklər", "Ziyarət", "Şeirə dönən duyğular" (Təbriz), "Təzadlar" (Təbriz), "Bu da bir həyatdı" (Təbriz), "Sitotxlis Poezia" (gürcü dilində), "İntellekt" (Tbilisi), "Təzadlar" və "Bu da bir həyatdı" (Çin dilində), "Compilation & Translation Press" (Pekin) kitablarının müəllifisiniz.

Ədəbi və elmi uğurlarınıza görə "Yusif Məmmədəliyev", "Qızıl Qələm", "Səməd Vurğun", "Zahid Xəlilov", "Cəfər Cabbarlı" mükafatlarına, "Milli Türklüyə xidmət" ödülünə, TÜRKSOY medalına layiq görülmüsünüz.

Hörmətli Hamlet müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

*"Ədəbiyyat qəzeti", 4 mart 2023-cü il*

# LETTER OF CONGRATULATION TO PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

**Dear Hamlet Isakhanli!**

We congratulate you - a well-known writer and scientist - on your 75th birthday.

You graduated from high school with a gold medal in 1965, were admitted to the Faculty of Mechanics and Mathematics of Baku State University (now BSU), and graduated with honors in 1970. In 1970-1973, you were sent by the Institute of Mathematics and Mechanics of the Azerbaijan Academy of Sciences to study at the graduate school of the Mechanics-Mathematics Faculty of Moscow State University named after M.V. Lomonosov. In 1973, you defended your thesis and received the degree of candidate of physical and mathematical sciences.

In 1973-1983, you worked at the Moscow State University named after M.V. Lomonosov, the Mathematical Institute named after V.I. Steklov of the USSR Academy of Sciences, the Institute of Mathematics and Mechanics of the Azerbaijan Academy of Sciences, Baku State University, engaged in scientific research and pedagogical work. Then you worked as a professor and department head at the Baku branch of the Azerbaijan State Oil Academy and the Leningrad Institute of Finance and Economics.

Your research works have been published in prestigious scientific journals and anthologies of countries such as the former USSR, USA, Great Britain, Canada and Germany. In 1983, you defended your thesis on "Some problems of multi-parameter spectral theory" at the V.I. Steklov Institute of Mathematics of the USSR Academy of Sciences in Moscow and received the degree of Doctor of Physics-Mathematical Sciences; a little later, you were considered worthy of the title of professor.

In 1991, you initiated the establishment of an English-language university in Azerbaijan, founded this university, which received official status in 1991, and started working as the founding rector of the first private university in Azerbaijan. A little later, this center of science, education and culture, which received a new name - Khazar University, has become one of the world-renowned universities of Azerbaijan.

You are considered one of the founders of modern multiparameter spectral theory. Your name has gone down in the history of science as the first Soviet mathematician who conducted in-depth research in this very important field of mathematics, which originates from mathematical physics.

You are known in Azerbaijan and abroad not only as a scientist and organizer of science and education, but also as a poet and writer. You have written poems since your youth, but you have not published them for a long time. Your poetry books have been published in Azerbaijan, Russia, China, Iran, Turkey, Georgia, Pakistan, Finland and other countries. Your poems have been translated into Russian, English, Chinese, Georgian, Estonian, Finnish, Turkish and other languages.

Your creativity also includes translation work. You have translated the poems of Russian, English and French poets such as V.A.Zhukovsky, F.Baratinsky, F.I.Tutchev, A.Fet, S.Yesenin, N.Gumilyov, A.Akhmatova, A.Akhundova, C.G.Byron, W.Blake, R.Herrick and G. De Nerval, from the original into Azerbaijani.

A lot of music has been composed for your poems.

You are the author of the books "Contrasts", "This is a life as well", "Quadrels", "Pilgrimage", "Feelings that turn into poetry" (Tabriz), "Contrasts" (Tabriz), "This is a life as well (Tabriz), "Sitotkhlis Poetry" (in Georgian), "Intellect" (Tbilisi), "Contrasts" and "This is a life as well" ( in Chinese)," "Compilation & Translation Press" (Beijing) which were welcomed by the literary community with interest.

Your literary and scientific achievements have earned you the "Yusif Mammadaliyev", "Gızıl Qalam", "Samad Vurgun", "Zahid Khalilov", "Jafar Jabbarli" awards, the "Service to National Turkishness" award, and the TURKSOY medal.

Dear Hamlet Isakhanli!

Once again, we congratulate you on your jubilee and wish you long life, good health, and creative success.

**Azerbaijan Writers Union**

*"Ədəbiyyat qəzeti" ("Literary Newspaper"), March 4, 2023*

# AD GÜNÜN MÜBARƏK, ƏZİZ HAMLET MÜƏLLİM!

Hamletin mətbuatda aktiv çıxışlarına baxmayaraq, o özü haqda məlumat verməyib. Ona görə əvvəlcə Hamlet müəllimin kimliyi haqda bəzi bilgilər verəcəyəm. Hamlet müəllim 1948-ci il martın 1-də Qardabani rayonunun Kosalı kəndində anadan olub. 1955-1965-ci illərdə doğulduğu kəndin orta məktəbində oxuyub. 65-ci ildə məktəbi qızıl medalla bitirib və ADU-nun (indiki BDU) mexanika-riyaziyyat fakültəsinə daxil olub.

1970-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib və həmin ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun (indiki Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutu) aspiranturasına qəbul olunub və Moskva Dövlət Universitetinə ezam olunub. Üç ildən az bir müddərdə məşhur riyaziyyatçı A.Q.Kostyuçenko`nun rəhbərliyi ilə "Operator dəstələrin spektral nəzəriyyəsinin bəzi məsələləri"mövzusunda namizədlik dissertasiyasını başa çatdırıb. Dissertasiyasını BDU-nun Dissertasiya şurasında müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb. Burada qeyd edim ki, dissertasiya yüksək qiymətləndirilib və doktorluq dissertasiyası kimi qəbul edilməsi haqda məsələ qaldırılıb. Bunun əsas təşəbbüsçüsü məşhur riyaziyyatçımız akademik Z.İ. Xəlilov olub. İşin elmi rəhbəri A.Q.Kostyuçenko və birinci opponent məşhur alimimiz M.G.Qasımovun israrı ilə iş namizədlik dissertasiyası kimi qəbul olunub. Səbəb də bu oldu ki, Hamlet hələ gəncdir və bir qədər də çalışıb doktorluq dissertasiyası yaza bilər.

Bu sətirlərin müəllifi sözü edilən dissertasiyanın ikinci opponenti olub. Mən rəyimin sonunda işin namizədlik dissertasiyasına qoyulan tələblərin çox üstündə olduğunu yazmışdım. Ancaq özüm həmin vaxtda elmlər namizədi olduğumdan işin doktorluq dissertasiyasına layiq olduğunu deməkdən çəkindim.

Hamlet müəllim bu başarısından sonra doktorluq dissertasiyası üzərində çalışmağa başladı. Onun seçdiyi sahə əski sovetlər dönəmində heç bir sovet riyaziyyatçısının çalışmadığı çoxparametrli spectral məsələləri oldu. Hamlet müəllim öz istedadı və əzmkarlığı ilə (zəhmətkeşliyi ilə) bu yeni sahədə mühüm teoremlər isbat etdi, çox faydalı nəticələr aldı. Beləliklə, doqquz illik çalışmanın nəticəsi olaraq doktorluq dissertasiyasını tamamladı. Qısa müddət sonra 1982-ci ildə dünyanın ən məşhur riyaziyyat məktəblərindən biri olan Moskva şəhərində SSRİ Elmlər Akademiyasının V.Steklov adına Riyaziyyat İnstitutunda doktorluq dissertasiyası müdafiə edib, fizika-riyaziyyat elmləri doktoru oldu.

Müdafiədən az keçmiş müxtəlif ölkələrdən Hamlet müəllimin riyaziyyatda əldə etdiyi nəticələrlə maraqlanan bir sıra alimlərdən dəvətiyyə aldı. Kanada alimlərinin çoxparametrli spektral məsələlərdəki uğurlarını nəzərə alıb, Kanadaya getdi. Məruzələri çox sayda mütəxəssisin diqqətini çəkdiyinə görə əldə etdiyi nəticələri orada monoqrafiya şəklində çap etdirdi.

Hamlet müəllimin yetişdirdiyi bir neçə aspirant hal-hazırda Türkiyə və ABŞ universitetlərində professor vəzifəsində çalışırlar.

Hamlet İsaxanlının fəaliyyətini heç bir qəzet və ya dərgi səhifəsində yerləşdirmək mümkün deyil. Bunu ancaq qalın bir kitaba sığdırmaq olar. Əgər Hamlet müəllim dünyada tanınmış təkcə Xəzər Universitetini yaratmış olsaydı belə, yenə bugünkü xeyirxahlığın, şöhrətin sahibi olardı.

Xəzər Universitetininin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor, ictimai xadim, filosof, ədəbiyyatçı, tarixçi, şair Hamlet İsaxanlının doğum gününü təbrik edir, ona uzun ömür diləyir, başarılar arzulayıram.

**Prof. Məmməd Bayramoğlu**

## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLIYA TƏBRİK MƏKTUBU

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlıya**

**Hörmətli Hamlet müəllim,**

Sizi 75 illik yubileyiniz münasibətilə öz adımdan və Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) adından təbrik edirəm!

Siz uzun illərdir ki, ölkəmizin ictimai həyatında fəal iştirak edir, Azərbaycanda ilk özəl universitetin qurucusu olaraq, təhsilimizin inkişafında müstəsna xidmətlər göstərirsiniz. Sizin görkəmli elm xadimi, tanınmış pedaqoq və nümunəvi ziyalı kimi həyat yolunuz hər bir azərbaycanlı üçün örnəkdir. Rəhbərlik etdiyiniz Xəzər Universitetinin iqtisadi və sosial sahələr üzrə yüksək ixtisaslı kadr hazırlığı istiqamətində Azərbaycan təhsil məkanında özünəməxsus yeri vardır.

Əminəm ki, hələ uzun illər elm və təhsilin inkişafına töhfələrinizi qazandıracaqsınız. Sizə bu şərəfli və nəcib fəaliyyətinizdə uğurlar diləyirəm. Yubileyiniz münasibətilə Sizi bir daha təbrik edirəm, uzun ömür, möhkəm cansağlığı və xoş günlər arzulayıram!

*Hörmətlə,*

Rektor prof. Ədalət Muradov

## LETTER OF CONGRATULATION TO PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

UNEC AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS

**To professor Hamlet Isakhanli, Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees**

**Dear Hamlet Isakhanli,**

On my own behalf and on behalf of the Azerbaijan State University of Economics (UNEC), I congratulate you on your 75th anniversary!

You have been actively involved in the public life of our country for many years, as the founder of the first private university in Azerbaijan, you have rendered exceptional services in the development of our education. Your life as a prominent scientist, well-known educator and exemplary intellectual is an example for every Azerbaijani. Khazar University, which you lead, has a special place in the educational space of Azerbaijan in the direction of training highly qualified personnel in the economic and social fields.

I am sure that you will contribute to the development of science and education for many years to come. I wish you success in this honorable and noble activity. I congratulate you once again on your anniversary, I wish you a long life, good health and happy days!

*Sincerely,*

Rector prof. Adalat Muradov

# DEMƏK İSTƏDİYİM – DEYƏ BİLMƏDİKLƏRİM VƏ YA VERİLMƏYƏN HƏDİYYƏ

Professor Hamlet İsaxanlının 75 illik yubileyi münasibətilə 28 fevral 2023-cü il tarixində "Dünya" məktəbində keçirilən tədbirdə Coğrafiya İnstitutunun əməkdaşları və öz adımdan çıxış və hədiyyələri təqdim etmək imkanım olmadığından ürək sözlərimi yazılı ifadə etmək istəyirəm.

Əziz bu gözəl günün iştirakçıları!

Hesab edirəm ki, bu gün bizim hər birimiz yaşımızdan, mövqeyimizdən asılı olmayaraq bu tarixi gündə, professor Hamlet İsaxanlının 75 illik yübileyində iştirak etməkdən fəxr duyuruq və gələcəkdə də xüsüsən zalda çoxluq təşkil edən gənclərimiz bu günlə fəxr edərək deyəcəklər :- "mən vaxtilə Hamlet müəllimin yubileyində iştirak etmişəm".

Hamlet müəllimin bu gözəl yubileyində çıxış etmək, onun barəsində söz demək həm şərəflidir, həm də məsuliyyətlidir. Şərəflidir ona görə ki, böyük bir alimin, mütəfəkkirin və yaradıcı insanın barəsində söz deyirsən. Məsuliyyətlidir ona görə ki, sən belə bir şəxsiyyətin şərəflə keçdiyi tarixi yolunu, uğurlarını, bir sözlə - Hamlet dünyasını dəyərləndirə bilərsənmi? Bəzi insanlar tərifi çox xoşlayırlar. Ancaq mən hesab edirəm ki, tərif yox, insanların həyatda qazandıqlarını, layiq olduqlarını, qazandığı dünyasını onlara qaytarmaq hər bir insanın özündən böyük mənəvi potensial tələb edir. Ona görə ki, birinci, sən onun yaratdığı "dünyanı" görməli, təhlil etməyi və ikinci, gördüklərini həmin insana qaytarmağı bacarmalısan. Bu baxımdan mənim belə bir poetik bənzətmə yazım var:

*Yaxşılarda adətdir daim yaxşılıq etmək,*
*Aqilə çətin deyil bunu duyub dərk etmək.*
*Həyata məna vermək, onu sevib, sevdirmək,*
*Özü bir yaxşılıqdır yaxşıya qiymət vermək.*



*Professor Rza Mahmudov və həyat yoldaşı Gülnaz Məlikova, Hamlet İsaxanlı və məktəb yoldaşı Zəhman Əliyev*

Hörmətli dostlar!

Bizim hər birimiz Hamlet müəllimin yaşadığı bu şərəfli tarixinin, onu tanıdığımız dövrdən asılı olaraq, bir hissəsini görə bilərik. Mən isə, dörd illik fərqlə paralel olaraq Hamlet müəllimin müşahidəçi, izləyici, uşaqlıq, qohumluq hissi ilə bu tarixi yubileyini dəyərləndirə bilərəm. Buna mənim yetmiş illik tarixim də əsas verir.

Yeri gəlmişkən, demək istəyirəm ki, iştirakçısı olduğum bir çox yubiley tədbirlərindən fərqli olaraq həyatımda ən çox böyük həvəs və duyğu ilə çıxış etmək istədiyim iki yubiley olub ki, onun biri professor Camal Mustafayev və ikincisi Hamlet İsaxanlıdır.

Mən burada Hamlet müəllimin elmi, pedaqoji, yaradıcı alim, mütəfəkkir insan kimi qazandığı böyük nailiyyətlərindən danışmaq istəmirəm. Çünki bu hamımıza bəllidir. Mən ancaq Hamlet müəllimin ölkə-

mizdə və dünyada qazandığı nailiyyətlərə aparan yolun uğurlarından danışmaq istəyirəm.

İlk öncə onu demək istəyirəm ki, Hamlet müəllimlə uşaqlıqdan ilk yadımda qalan hiss, mənim 6 yaşımdan birinci sinfə getməyə hazırlaşırkən Hamlet müəllim dördüncü sinfə getdiyindən öz çantasını mənə verdiyi və məktəb açılana kimi bütün yayı mən o çanta ilə məktəbə getmək istəyi ilə yaşadığım hisslərdir. Biz yaxşı qohum olmaqla bərabər Hamlet müəllim tez-tez bizə gələrdi (böyük qardaşım, hazırda İstanbul Texniki Universitetinin professoru, riyaziyyatçı alim Elimxan Mahmudov Hamlet müəllimlə 11 il bir sinifdə oxuyub və hər ikisi orta məktəbi qızıl medalla bitiriblər) və məktəb, oxumaq, idman, uşaqlıq hissləri ilə yaşayardıq. Mən bir müşahidəçi kimi demək istəyirəm ki, Hamlet müəllim bütün yaş dövründə müdrik idi və öz ideyaları, düşüncələri ilə daha çox fərqlənirdi. Misal üçün, uşaqlıqdan oxumaqla bərabər şahmat oynamağı, futbolu çox sevərdi və mənə ilk dəfə şahmat oynamağı öyrədib, futbola həvəs yaradıb. Bunun nəticəsidir ki, mən də Hamlet müəllimlə yaxınlarla birlikdə bəzən səhərə qədər şahmat, birlikdə futbol oynayardıq. Məndə futbola, şahmata həvəsi Hamlet müəllim oyatmış və mən bu gün də bu idman növləri ilə yaşayır və azarkeşlik edirəm.

Hamlet müəllim eyni zamanda məktəbdə yazıçılarımızın əsərlərindən dərnəklər təşkil edər və özü də bunun iştirakçısı olardı. Mən tələbə olarkən Tələbə Elmi Cəmiyyəti xətti ilə Moskva Dövlət Universitetindəki konfransda edəcəyim çıxışımın və ilk məqaləmin rus dilinə tərcüməsini məhz, Hamlet müəllim etmişdir.

Bütün bunlar bu şəxsin gələcək uğurlarından, həyatda özünə layiqli yer tutmasından xəbər verirdi ki, bu da bugünkü yubileyin "hesabatından" göründüyü kimi, öz təsdiqini tapmışdır. Ümumiyyətlə, mən hesab edirəm ki, həyatda oxumaqla, elmlə məşğul olmaqla zəruri nailiyyətlər əldə etmək üçün insanlarda digər keyfiyyətlər də olmalıdır. Belə keyfiyyətlərə, məncə, mövcud şəraiti qiymətləndirmək – həmin şəraitin gələcəyini proqnozlaşdırmaq – belə proqnozlardan ideyalar yaratmaq – bu ideyaları həyata keçirmək üçün müəyyən potensiala malik olmaq və bu potensialdan, özündən istifadə etmək kimi qabiliyyətlər daxildir. Məncə, ayrı - ayrı adamlarda bu keyfiyyətlərin bəziləri ola bilər ki, bu, həyatda istədiyin uğuru qazanmağa kifayət etmir. Hamlet müəllimdə isə fəxrlə deyə bilərəm ki, bu keyfiyyətlər kompleks şəkildə vardır ki, onun uğurlarının əsasını məhz bunlar təşkil edir. Lakin, böyük məsuliyyətlə deyə bilərəm ki, Hamlet müəllimin uğurları təkcə bu keyfiyyətlərlə bağlı deyil. Özünün dediyi kimi, "Həyat tənliklər sistemindən ibarətdir". Əgər bu keyfiyyətlər tənliyin, bərabərliyin sol tərəfini əks etdirirsə, həmin bərabərliyin sağ tərəfini, bu keyfiyyətlərin hər birini aça bilən, Hamlet müəllimin uğurlarını reallığa çevirən, xatirəsini böyük hörmətlə yad etdiyimiz Nailə xanımdır. Ona görə belə həyati uğurun bünövrəsini bu bərabərlik təşkil edir. Çox təəssüf ki, əksər insanlarda bu bərabərlik "böyükdür" və ya "kiçikdir" işarələri ilə əvəzlənir. Əlavə edim ki, istənilən alim eyni zamanda gözəl təşkilatçı olanda, o sahənin uğuru qaçılmazdır. Sonda belə bərabərliklərin öz uğuru, uğurun isə, öz nəticələri olur. Bu nəticələr isə, Hamlet müəllimin təsisçisi olduğu Xəzər Universitetinin məzunları və onların cəmiyyətdə tutduğu layiqli mövqelərdir. Hər bir müəllim öz tələbəsinin uğuru ilə fəxr edir. Hamlet müəllim isə, bu baxımdan həmin uğurun kvadratı, kubu, hətta "n" üstü ilə fəxr edə bilər. Bu isə dövlətinə, millətinə, xalqına olan ən böyük dəyərlərlə qiymətləndirilə bilər. Deməli, Hamlet müəllim eyni zamanda gözəl vətəndaşdır. Bu gözəl Azərbaycan vətəndaşlığını təsdiq edən çoxsaylı amillərdən biri də Hamlet müəllimin beynəlxalq nüfuzu və elm, təhsil sahəsində beynəlxalq aləmdə tutduğu mövqeyidir. Mən əminliklə deyə bilərəm ki, onun çoxsaylı ölkələrdə təmsil olunması bir ziyalı, mütəfəkkir alim kimi, öz mədəniyyəti, dünyagörüşü ilə xalqımıza, millətimizə böyük nüfuzlar bəxş etmişdir.

Əzizimiz Hamlet müəllim! Mən 55 yaşın tamamında yazdığım yazının bir hissəsində deyirdim:

*Baxıb ömrümdə qoşalaşan beşlərə,*
*Uşaqlıq illərimi yadıma saldım.*
*Birinci beş uşaqlığımın gocalığı,*
*İkinci beş qocalığımın cavanlığıdır.*

Ancaq indi Sizə baxıb mən hesab edirəm ki, 55 yox, 75 gocalığımızın cavanlığıdır. Sizi çoxlarımızdan fərqləndirən cəhətlərdən biri də bu cavanlığın sirridir. Bu sirr isə, Sizin idmana olan böyük həvəsiniz və daima idmanla məşqul olmağınızla izah oluna bilər. Əminəm ki, bu cavanlıq hissləri Sizin gələcəkdə qeyd olunacaq çoxsaylı yubileylərinizin təməlini təşkil edəcəkdir.

Sizə şərəfli yubileylərinizin davamlı olmasını arzu edirəm!

*Baxıb ömrümdən qopan yarpaqlara,*
*Keçmişimi, tarixini vərəqləyirəm.*
*Öz varlığı, əqidəsi ilə ucalanlara,*
*Səcdə qılıb, qibtə edib, əhsən deyirəm.*

Böyük duyğularla və gələcək yubileylərdə
söz demək ümüdilə,

**Sizin Rza**

# GÜCLÜ BİR İNSANDIR HAMLET İSAXANLI!

*İçimdə yaşar bir səda –*
*Şərlə çarpışan xeyirəm.*

**H. İsaxanlı**

## *Sumqayıt "Dünya" məktəbində professor, akademik Hamlet İsaxanlının yubileyi*



*Hamlet İsaxanlı, məktəbin müəllimi Viktoriya Poladova*
*Hamlet Isakhanli and Viktoria Poladova, the teacher of the school*

Yunan dramaturqu Sofokl yazır: "Dünyada heyrətedici güclü qüvvələr çoxdur, lakin insandan güclüsü yoxdur". Bu məqaləni yazmaq üçün müəllif olaraq özümdə Sofoklun bu fikrinə kiçik bir düzəliş etmək haqqı gördüm: "Dünyanın hərəkətverici qüvvəsi insan gücü deyil, güclü insandır." Mən özünün həyat yolu ilə minlərlə gənclərə örnək olan, elmə böyük töhfələr verən, görkəmli elm xadimi, ictimai xadim, şair və ən əsası mükəmməl dəyərlərə sahib şəxsiyyət Hamlet İsaxanlını məhz güclü insan kimi tanıdım. Beynəlxalq miqyasda elmə yeniliklər gətirəcək qədər güclü, fəlsəfi, siyasi baxışları ilə, sözünün, qələminin qüdrəti ilə insanların həyat kredosunu dəyişəcək qədər, "şərlə çarpışacaq" qədər güclü bir insandır Hamlet İsaxanlı!

Əsrlər boyu yaradıcı insanlar sırasında xeyri, şəri təsvir edən, həyatın müxtəlif təzadlardan ibarət olduğunu əsərlərində vurğulayan alim, filosof, şair və ədiblərimiz olub. Dövrün, zamanın tələbi ilə səslənən, aktuallığı ilə diqqət çəkən fəlsəfi, tarixi və bədii əsərlərin müəllifi olan Hamlet İsaxanlı yaradıcılığı da bu təzadlardan yan keçməmiş, janrından asılı olmayaraq az qala bütün əsərlərində xeyirlə

şərin mübarizəsi ana xətt kimi mövcuddur.

Çoxları üçün bir qədər gizli, bir qədər fikirli, hətta sirli təəssürat bağışlayan qəhrəmanımın bütün əsərlərində onun vətənpərvərlik, müdriklik, insanlara, insanlığa sevgi dolu ruhu aydın görünür. Məhz bu sevgidən qaynaqlanır ölkədə ilk özəl, beynəlxalq tələblərə uyğun təhsil ocaqlarının – Xəzər Universitetinin, "Dünya" məktəbi kompleksinin yaradılması.

Sahib olduğu dəyərləri sözlə ifadə etməkdə çətinlik çəkdiyim Hamlet İsaxanlının təsisçisi olduğu Sumqayıt "Dünya" məktəbində martın 14-də alimin 75 illik yubileyi münasibətilə elmi, publisistik, bədii yaradıcılığı və quruculuq fəaliyyətinə həsr edilmiş "İçimdə yaşar bir səda – Şərlə çarpışan xeyirəm" adlı tədbir keçirildi. Professorun "Təzadlar", "Əlkimya" və "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitablarının məzmunu əsasında müəllim və şagirdlərin Azərbaycan, ingilis və rus dillərində hazırladıqları tədris xarakterli kompozisiyalar tədbir iştirakçılarının yüksək marağına səbəb oldu. Xüsusən Hamlet İsaxanlının aktual olan "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı tədqiqat əsərinin müəllim və şagirdlərin hazırladıqları videoversiya ilə təqdimatı tədbirə xüsusi rəng qatdı. Şagirdlərin yubilyara ithaf olunmuş əl işləri və rəsmlərindən ibarət sərgi, eləcə də "Bahar dünya xalqlarının gözü ilə" adlı bayram festivalı - ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Fransa, Rusiya, Yaponiya, Polşa, Ukrayna, Türkiyə və Azərbaycan xalqlarına məxsus mahnı, rəqs və milli mətbəxin nümayişi tədbir gününü təntənəsi ilə şövqləndirdi. Sonda qonaqlar Sumqayıt "Dünya" məktəbinin müəllim, şagird və valideynlərinə maraqlı tədbir və əlvan festival üçün dərin təşəkkürlərini bildirdilər.



*Tədbirin qonağı-Dövlət Məşğulluq Agentliyinin Abşeron-Xızı Regional Məşğulluq filialının müdiri Sənan Məmmədzadə, məktəbin direktoru Çiçək Qaracayeva*

*The guest of the event - Sanan Mammadzadeh, Head of the Absheron-Khizi Regional Employment Branch of the State Employment Agency; Chichek Qarajayeva, the principal of the school*

İngilis filosofu Frensis Bekon kitab haqqında demişdir: "Kitab zamanın dalğaları üzərində sə-

*(Ardı səh.42-də)*

yahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir".

Professor Hamlet İsaxanlının yazdığı əsərlərində mövcud olan elmi, tarixi, fəlsəfi və bədii fikirlərin zamanın dalğaları üzərindən keçərək, gələcək nəsillərə çox dəyərli irs olacağına əminik. Şeirlərinin birində əks olunan bu fikirlər isə gəncliyimiz üçün həyat aksiomudur:

*Sözümüzün keşiyində dura bilsək,*
*Hədəfləri bircə-bircə vura bilsək,*
*Gələcəyi günümüzdə qura bilsək,*
*Yaşamağa nə var ki!..*

Sumqayıt "Dünya" məktəbinin kollektivi olaraq professor Hamlet İsaxanlını 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və uğurlar arzu edirik!

**Xuraman Nağızadə**
*Sumqayıt "Dünya" məktəbinin direktor müavini*




## JUBILEE EVENT OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT "DUNYA" SCHOOL IN SUMGAYIT

On March 14, an event dedicated to the scientific and artistic creativity and creative activities of Hamlet Isakhanli, the founder of the "Dunya" school complex and Khazar University, the chairman of the Board of Directors and Trustees of the university, professor academician Hamlet Isakhanli, was held on March 14, 2023.

The educational compositions prepared by teachers and students in Azerbaijani, English and Russian languages based on the content of the professor's books "Contrasts", "Alchemy" and "My Karabakh or the Karabakh knot" aroused high interest of the participants of the event. In particular, the presentation of the current research work of Hamlet Isakhanli "My Karabakh or the Karabakh Knot" with a video version prepared by teachers and students gave a special flavor to the event.

An exhibition of hand-made works and drawings of students dedicated to the anniversary, as well as a festival called" Spring - through the eyes of the peoples of the world " - a demonstration of songs, dances and national cuisine belonging to the peoples of the USA, Great Britain, Germany, Switzerland, France, Russia, Japan, Poland, Ukraine, Turkey and Azerbaijan, enlivened the event day.

At the end, the guests expressed their deep gratitude to the teachers, pupils and parents of Sumgayit "Dunya" school for the interesting event and colorful festival.





*Məktəbin beşinci sinif şagirdi Fərrux Hüseynov*
*Farrukh Huseynov, the 5th grade student of the school*



## MİLLİ MƏCLİSİN MƏDƏNİYYƏT KOMİTƏSİNİN SƏDRİ QƏNİRƏ PAŞAYEVA PROFESSOR, AKADEMİK HAMLET İSAXANLINI TƏBRİK ETDİ

## GANIRA PASHAYEVA, CHAIRPERSON OF THE CULTURE COMMITTEE OF THE MILLI MAJLIS, CONGRATULATES PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva 2023-cü il martın 15-də Xəzər Universitetinin qurucusu, görkəmli riyaziyyatçı alim, şair, yazıçı, publisist, tərcüməçi, professor, akademik Hamlet İsaxanlı ilə universitetdə görüşərək, onu 75 illik yubileyi münasibətilə Mədəniyyət Komitəsinin Təbrik məktubunu və hədiyyəsi təqdim edib.

Professor, akademik H.İsaxanlı komitə sədrinə "Xəzər"ə gəlişinə, xoş sözlərinə, təbrikinə görə təşəkkür edib.

On March 15, 2023, the Chairperson of the Culture Committee of the Milli Majlis, Ganira Pashayeva, met with Hamlet Isakhanli, the founder of Khazar University, an outstanding mathematician, poet, writer, publicist, translator, professor, academician, at the university, and presented him with a congratulatory letter from the Culture Committee on the occasion of his 75th anniversary. presented the gift.

Professor, academician H. Isakhanli thanked the chairman of the committee for her visit to Khazar University, her kind words and congratulations.



# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ
# MILLI MAJLIS OF THE REPUBLIC OF AZERBAIJAN
## MƏDƏNİYYƏT KOMİTƏSİ
## CULTURE COMMITTEE

**Xəzər Universitetinin qurucusu,**
**şair, yazıçı, publisist,**
**Prof. Dr. Hamlet İSAXANLIYA**

**Hörmətli Hamlet müəllim,**

Sizi 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, iş avandlığı, elmi və ədəbi yaradıcılığınızda yeni uğurlar diləyirəm!

Siz müxtəlif sahələrdə geniş fəaliyyət özkeçmişinə malik olan ensiklopedik bilikli ictimai, elm və sənət xadimisiz. Siz özünəxas etnoqrafik yaddaşı olan sazlı-sözlü Qarayazı elinin Kosalı kəndində doğulmusuz. 1965-ci ildə orta məktəbi qızıl medalla bitirib, Azərbaycan Dövlət Universitetinə (indiki BDU-ya) qəbul olunmuş və 1970-ci ildə ali təhsili fərqlənmə diplomu ilə bitirmisiz. 1970-1973-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində aspiranturada oxumusuz və 1973-cü ildə dissertasiya işini uğurla müdafiə edərək, alimlik dərəcəsi almısız.

1973-1983-cü illərdə Siz Moskva və Bakıda çalışmış, elmi-tədqiqatla və pedaqoji işlə məşğul olmusuz. Keçmiş SSRİ, ABŞ, Almaniya, Böyük Britaniya, Kanada və b. ölkələrdə nüfuzlu elmi jurnallarda, toplularda elmi-tədqiqat əsərləriniz dərc edilib. Siz 1983-cü ildə Moskvada doktorluq dissertasiyasını uğurla müdafiə edərək, elmlər doktoru alimlik dərəcəsi almış, bir qədər sonra isə professor adına layiq görülmüsüz.

*(Ardı səh.46-da)*

**The founder of Khazar University,**
**poet,writer, publicist,**
**prof.dr. Hamlet ISAKHANLI**

**Dear Hamlet Isakhanli,**

I cordially congratulate you on your 75th anniversary, I wish you good health, good luck with your work, and new success in your scientific and literary work!

You are a public, scientific and artistic figure with encyclopedic knowledge and extensive personal background in various fields. You were born in the village of Kosali in the Garayazi region, which has its own ethnographic memory. In 1965, you graduated from high school with a gold medal and entered the Azerbaijan State University (now BSU), and in 1970 you graduated from a higher educational institution with honors. In 1970-1973, you studied at the M.V.Lomonosov Moscow State University as a post-graduate student, and in 1973 successfully defended your dissertation and received your scholastic degree.

In 1973-1983, you worked in Moscow and Baku, doing research and teaching. Your scientific and research works have been published in prestigious scientific journals and collections in the former USSR, USA, Germany, Great Britain, Canada and other countries. In 1983, you successfully defended your doctoral dissertation in Moscow, received the degree of Doctor of Science, and a little later you were awarded the title of Professor.

*(To be continued page 46)*

1991-ci ildə İngilisdilli Azərbaycan Universitetinin yaradılmasına təşəbbüs göstərmiş, respublika hökumətinin müvafiq qərarları ilə rəsmi status alan bu ali məktəbi qurmağa başlamısız. Azərbaycanın ilk özəl universitetinin qurucu-rektoru olaraq geniş fəaliyyət göstərmisiz. Bir qədər sonra yeni – Xəzər Universiteti adını alan bu elm, təhsil və mədəniyyət ocağı Azərbaycanın dünyada ən yaxşı tanınan saygın təşkilatlarından biridir.

Siz Azərbaycanda və onun hüdudlarından kənarda təkcə alim və elm-təhsil təşkilatçısı kimi deyil, şair kimi də tanınırsız. Şeirləriniz bir çox dilə çevrilib. Azərbaycanda, Rusiyada, Çində, Güney Azərbaycanda, Türkiyədə, Pakistanda, Gürcüstanda, Finlandiyada və digər ölkələrdə şeir kitablarınız, jurnal, qəzet və poetik toplularda şeir və poemalarınız gün üzü görüb. Sizin yaradıcılığınıza tərcümə işi də daxildir. Siz V.A.Jukovski, F.Baratınski, F.İ.Tütçev, A.Fet, S.Yesenin, N.Qumilyov, A.Axmatova, A.Axundova, C.Q.Bayron, V.Bleyk, R.Herrik, G.de Nerval və b. rus, ingilis, fransız şairlərinin şeirlərini orijinaldan Azərbaycan türkcəsinə çevirmisiz.

Sözlərinizə Ramiz Mustafayev, Vasif Adıgözəlov, Vaqif Gərayzadə, Lütfiyar İmanov, Cavanşir Quliyev, Tahir Əkbər, Elza Seyidcahan, Cahangir Zülfüqarov, Nailə İsayeva və Dilarə Qulamova musiqi bəstələyib. Sözləri Sizə aid olan mahnıları Lütfiyar İmanov, Flora Kərimova, Brilliant Dadaşova, İlqar Muradov, Azər Zeynalov, Rəşidə Behbudova, Gülyanaq Məmmədova, Samir Cəfərov, Aygün Bəylər, Manana Caparidze, Elza Seyidcahan, Anar Şuşalı, Bəturə Hüseynova, Yusif Savalan, Məhsəti Cabbarova, Azərbaycan Dövlət Simfonik Orkestri və Xoru, "Savalan", "Şeron", "Kristal" qrupları, "Dünya" məktəbinin xoru və b. ifa edib. Arif Babayev, Alim Qasımov, Nəzakət Teymurova, Zabit Nəbizadə, Zakir Əliyev, Teyyub Aslanov kimi muğam ustaları, gənc xanəndə Abgül Mirzəliyev və b. xanəndələr, müğənnilər də Sizin yaradıcılığınıza müraciət edib.

Sizi 75 illik yubileyiniz, bütün elmi, pedaqoji, ictimai və ədəbi yaradıcılıq uğurlarınız münasibətilə bir daha təbrik edir, ən xoş arzularımı yetirirəm!

*Sayqılarla,*

**Komitə sədri:**

**Qənirə PAŞAYEVA**

You initiated the creation of the English-speaking Azerbaijan University in 1991 and began the establishment of this higher school, which received official status by the relevant decisions of the government of the Republic. As the founding rector of the first private university in Azerbaijan, you have done a great job. This center of science, education and culture, which received a new name Khazar University a little later, is one of the most famous and respected organizations of Azerbaijan globally.

You are known in Azerbaijan and abroad not only as a scientist and organizer of science and education, but also as a poet. Your poems have been translated into many languages. Your book of poems, and poems and narrative poems have been published in magazines, newspapers and poetry collections in Azerbaijan, Russia, China, South Azerbaijan, Turkey, Pakistan, Georgia, Finland, etc. The work you created also includes translation work. You translated poems by Russian, English and French poets, namely V.A.Zhukovsky, F.Baratynsky, F.I.Tyutchev, A.Fet, S.Yesenin, N.Gumilyov, A.Akhmatova, A.Akhundova, G.G.Byron, W.Blake, R.Herrick, G.de Nerval & others from the original into Azerbaijani Turkish.

Lutfiyar Imanov, Flora Karimova, Brilliant Dadashova, Ilgar Muradov, Azer Zeynalov, Rashida Behbudova, Gulyanag Mammadova, Samir Jafarov, Aygun Baylar, Manana Japaridze, Elza Seyidjahan, Anar Shushali, Batura Huseynova, Yusif Savalan, Mahsati Jabbarova, Azerbaijan State Symphony Orchestra and choir, "Savalan", "Sheron" and "Crystal" groups, "Dunya" School choir, etc. performed songs, whose words belong to you. Such mugham masters as Arif Babayev, Alim Gasimov, Nazakat Teymurova, Zabit Nabizade, Zakir Aliyev, Teyyub Aslanov, young singer Abgul Mirzaliev and others also turned to your work.

Once again, I congratulate you on your 75th birthday, on all your scientific, pedagogical, social and literary achievements, and send you my very best wishes!

*Sincerely,*

**Chairperson of the committee:**

**Qanira PASHAYEVA**

# BƏSTƏKAR ELZA SEYİDCAHANIN MÜƏLLİF KONSERTİNDƏ HAMLET İSAXANLININ SÖZLƏRİNƏ BƏSTƏLƏDİYİ "BAKI" MAHNISI DA İFA OLUNDU

# COMPOSER ELZA SEYIDJAHAN'S SONG "BAKU", COMPOSED TO THE WORDS OF HAMLET ISAKHANLI, WAS ALSO PERFORMED AT THE AUTHOR'S CONCERT

Martın 28-də Şövkət Məmmədova adına Opera Studiyasında əməkdar artist, bəstəkar Elza Seyidcahanın solo konserti oldu. Konsertdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı iştirak etdi və sözlərinə bəstələnmiş "Bakı" mahnısı Rasimə Seyidcahanın ifasında Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə səsləndi.

Konsertdə Elza Seyidcahanın Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Azərbaycan-Türkiyə" mahnısı da Xəzər Universitetinin vokal müəllimi Məhsəti Cabbarova tərəfindən Kamera orkestrinin müşayiəti ilə ifa olundu.



*Elza Seyidcahan* *Elza Seyidjahan*



*Rasimə Seyidcahan* *Rasima Seyidjahan*



*Hamlet İsaxanlı*

*Hamlet Isakhanli*

On March 28, a concert of songs by honored artist, composer Elza Seyidjahan took place at the Shovket Mammadova Opera Studio. Professor, academician Hamlet Isakhanli, founder of Khazar university and chairman of its Board of Directors and trustees, attended the concert, and the song "Baku", composed to his words, was performed by Rasima Seyidjahan, accompanied by Khazar University Chamber Orchestra (artistic director, head of the Department of music and Art, honored teacher, pianist Zulfiyya Sadigova).

The song "Azerbaijan-Türkiye" composed by Elza Seyidjahan to the words of Bakhtiyar Vahabzade was also performed by Khazar University vocal teacher Mahsati Jabbarova accompanied by a Chamber Orchestra.

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ 75 İLLİYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ KONFRANS

# INTERNATIONAL SCIENTIFIC CONFERENCE DEDICATED TO THE 75TH ANNIVERSARY OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI





*Dilbər Zeynalova*
*Dilbar Zeynalova*

Martın 29-da Xəzər Universitetinin Mərmər salonunda universitetin Dillər və ədəbiyyatlar departamentinin təşkilaçılığı ilə Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri, fizika-riyaziyyat elmləri doktoru,



*Məmməd Abbasbəyli* *Mammad Abbasbeyli*

şair, yazıçı, publisist, tərcüməçi, elm, mədəniyyət və təhsil tarixi üzrə mütəxəssis, ədəbiyyat və dilçilik, tarix və fəlsəfəyə dair çoxsaylı əsərlərin müəllifi professor, akademik Hamlet İsaxanlının 75 illiyinə həsr olunmuş "Humanitar elm-

On March 29, in the Marble Hall of Khazar University, the International Scientific Conference of young researchers entitled "Humanities in the context of new paradigms" (directions: language, literature, history, culture, history and philosophy of education) dedicated to the 75th anniversary of professor, academician Hamlet



*Nadir Məmmədli* *Nadir Mammadli*



lər yeni paradiqmalar kontekstində" adlı gənc tədqiqatçıların beynəlxalq elmi konfransı (istiqamətləri: dil, ədəbiyyat, tarix, mədəniyyət, təhsil tarixi və fəlsəfəsi) keçirildi.

Konfrans H. İsaxanlının həyat və fəaliyyətinə həsr olunmuş geniş iclasla açıldı. Tədbirdə Xə-




*İmir Məmmədli   Imir Mammadli*

zər Universitetinin rəhbərliyi və əməkdaşları, tələbələr, ölkənin elm və ədəbiyyat nümayəndələri iştirak edirdilər.

İclası Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova açaraq, H. İsaxanlını və iştirakçıları salamladı, konfransın işinə uğurlar arzuladı.

Universitetin Kamera orkestri (bədii rəhbər Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadığova) də iştirakçıları musiqi ilə salamladı.

Sonra çıxışlar başlandı. Universitetin rektoru



*İradə Xəlilova   Irade Khalilova*

Isakhanli, founder of Khazar University, chairman of its Board of Directors and trustees, doctor of Physical and Mathematical Sciences, poet, writer, publicist, translator, specialist on the history of science, culture and education, author of numerous works on literature and linguistics, history and philosophy.

The conference opened with a wide session dedicated to the life and activities of Isakhanli. Kha-




*Kaxa Şenqelia   Kakha Shengelia*

zar University administration and staff members, students, representatives of science and literature of the country took part in the event.

The head of the Department of Languages and Literatures, associate professor Dilbar Zeynalova, opened the meeting, greeted H. Isakhanli and the participants, and wished success to the work of the conference. The chamber orchestra of the university (artistic director, head of the Department of Music and Art, honored teacher, pianist

dosent İradə Xəlilova H. İsaxanlının çoxşaxəli fəaliyyəti haqqında geniş məlumat verdi.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və



*Ramazan Korkmaz*

İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Baş direktoru professor Nadir Məmmədli, şair, nasir, tərcüməçi, H. İsaxanlının şeirlərini gürcü dilinə çevirən İmir Məmmədli çıxış etdilər.



*İmdat Avşar     Imdat Avshar*

Beynəlxalq Rektorlar Assosiasiyasının prezidenti, Gürcüstanda Qafqaz Universitetinin rektoru professor Kaxa Şenqelia, Ərdahan Universitetinin qurucu rektoru, Qırğızıstan-Türkiyə Manas Universiteti Qəyyumlar Şurasının üzvü, Qafqaz Universitetlər Birliyinin sədri professor Ramazan Korkmaz, şair, yazıçı-tərcüməçi, Avrasiya Yazarlar Birliyinin, Dünya Gənc Türk Yazarlar Birliyinin və Azərbaycan Ya-

Zulfiyya Sadıgova) greeted the participants with music.

Then the speeches began. Rector of the university, associate professor Irade Khalilova, gave information about H. Isakhanli's multifaceted activities.

Mammad Abbasbeyli, head of the Antimonopoly and Consumer Market Control State Service



*Bahman Amani*

under the Ministry of Economy, professor Nadir Mammadli, director general of Nasimi Linguistics Institute of ANAS, poet, prose writer, translator, Imir Mammadli, who translated H. Isakhanli's poems into Georgian, delivered speeches.




*Bahadur Turayev*

Professor Kakha Shengelia, the president of the International Association of Rectors, rector of Qafqaz University in Georgia, professor Ramazan Korkmaz, founding rector of Ardahan University, member of the Board of Trustees of Kyrgyzstan-Türkiye Manas University, chairman of the Cau-



casian Universities Union, Imdat Avshar, poet, writer-translator, member of Eurasian Writers Union, World Young Turkish Writers Union and Azerbaijan Writers Union, professor Bahman Amani, senior adviser of the Science and Technology Research Center of Iran, professor Bahadur Turayev, vice-rector of Uzbekistan Silk Road University conveyed their congratulations to H. Isakhanli in online format.

Various aspects of H.Isakhanli's multidisciplinary activity were touched upon in the speeches, the features of his creativity were noted and he was highly valued as a person.

At the end, H. Isakhanli, who was invited to give a speech with the applause of the participants, spoke about many interesting and important moments of his life, especially his educational years, and expressed his gratitude for the organization of the conference.

The conference continued its work in 5 sections. Speeches of more than 50 young specialists from Azerbaijan, Türkiye, Kazakhstan, China, the Netherlands and England were heard. The conference ended with the final meeting.

zıçılar Birliyinin üzvi İmdat Avşar, İranın Elm və Texnologiya üzrəTədqiqat Mərkəzinin baş məsləhətçisi professor Bahman Amani, Özbəkistan İpəkyolu Universitetinin prorektoru professor Bahadur Turayev H. İsaxanlıya təbriklərini onlayn formatda çatdırdılar.

Çıxış və təbrik nitqlərində H. İsaxanlının çoxsahəli fəaliyyətinin müxtəlif cəhətlərinə toxunuldu, yaradıcılığının xüsusiyyətləri qeyd olundu, şəxsiyyət kimi yüksək dəyərləndirildi.





## "XƏZƏR"İN MƏZUNU MÜDAFİƏ SƏNAYESİ NAZİRİNİN MÜAVİNİ TƏYİN EDİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 mart 2023-cü il tarixli sərəncamı ilə Vüqar Valeh oğlu Mustafayev Müdafiə sənayesi nazirinin müavini təyin edilib.

Vüqar Valeh oğlu Mustafayev 1986-cı ildə Bakı şəhərində anadan olub. Təhsili: 2004 – 2008-ci illər Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası Mühəndis iqtisadiyyatı və idarəetmə – Menecment ( fərqlənmə) 2010 – 2013-cü illər Xəzər Universiteti Maliyyə və kredit ixsitsası üzrə "Biznesin idarə edilməsi ( MBA) " magistr proqramı 2016-ci ildən etibarən beynəlxalq assosasiya olan Daxili Auditorlar İnstitutunun üzvü olmaqla yanaşı "Certified Internal Auditor ( CIA) " – Beynəlxalq Daxili Auditor kvalifikasiyası əldə etmişdir. 2020-ci ildən beynəlxalq "İBM Data Science Specialization" – Data Elmi üzrə ixtisastlaşmış kvalifikasiyaya sahibdir.

Bakalavr təhsili dövründə 2006 – 2008-ci illərdə müxtəlif şirkətlərdə Təlim Koordinatoru və Maliyyə və mühasibatlıq üzrə mütəxəssis vəzifələrində fəaliyyət göstərmişdir. 2009 – 2012-ci illərdə ölkədə fəaliyyət göstərən dünyanın nüfuzlu beynəlxalq audit şirkətlərindən olan "Ernst & Young CIS B. V" şirkətində baş mütəxəssis olaraq çalışıb. 2012 - 2014-cü illərdə Azerfon MMC-də Daxili Audit Departamentinin Direktoru kimi fəaliyyət göstərib. 2014-cü ildən etibarən PAŞA Holdinq MMC və ona aid olan Şirkətlərdə müxtəlif rəhbər vəzifələrində çalışıb: 2014-cü ildə PAŞA Holdinq MMC-də İcraçı Direktorun Müşaviri vəzifəsinə təyin olunub.

2014-cü ildən etibarən PAŞA Sığorta ASC və PAŞA Həyat Sığorta ASC-nin Təftiş Komissiyasının Sədri olaraq fəaliyyət göstərib.

2021-ci ildə PAŞA Holdinq MMC-nin Türkiyə Respublikasındakı Nümayəndəliyinin Rəhbəri, eyni zamanda İstanbul mərkəzli PDT və Gayrımenkul A. Ş. şirkətinin Müşahidə Şurasının Sədri olaraq təyin edilib.

Ailəlidir. İki övladı var.

## KHAZAR UNIVERSITY GRADUATE APPOINTED DEPUTY MINISTER OF DEFENSE INDUSTRY

By the decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated March 15, 2023, Vugar Valeh Mustafayev was appointed as the Deputy Minister of Defense Industry.

Vugar Mustafayev was born in Baku in 1986. Education: 2004 – 2008 Academy of Public Administration under the President of the Republic of Azerbaijan Engineering Economy and Management – Management (with honors diploma) , 2010 – 2013 Khazar University Master's program "Business Administration (MBA)" in Finance and Credit Specialization, since 2016 in addition to being a member of the Institute of Internal Auditors, which is an international association, he obtained the qualification "Certified Internal Auditor (CIA)" - International Internal Auditor.

In 2006-2008, during his undergraduate studies, he worked as a Training Coordinator and Finance and accounting specialist in various companies.

From 2009 to 2012, he worked as a senior specialist at Ernst & Young CIS B.V., one of the world's most prestigious international audit companies operating in the country. From 2012 to 2014, he worked as the Director of the Internal Audit Department at Azerfon LLC. Since 2014, he has worked in various management positions in PASHA Holding LLC and its related companies: in 2014, he was appointed as the Advisor to the Executive Director at PASHA Holding LLC.

Since 2014, he has worked as the Chairman of the Inspection Commission of PASHA Insurance OJSC and PASHA Life Insurance OJSC.

In 2021, he was appointed as the Head of the Representative Office of PASHA Holding LLC in the Republic of Turkey, as well as the Chairman of the Supervisory Board of the Istanbul-based PDT and A. Ş. Real Estate Company.

He is married. He has two children. The country's websites published news about it.

https://azerforum.com/az/medet-quliyeve-yeni-muavin-teyin-edildi-dosye və s.

# “ÖZƏLLƏRDƏN ƏVVƏL DÖVLƏT UNİVERSİTETLƏRİNİN NÜFUZUNU QALDIRMAQ LAZIMDIR”

# “IT IS NECESSARY TO RAISE THE REPUTATION OF PUBLIC UNIVERSITIES BEFORE THE PRIVATE ONES”

Moderator.az
ekskluziv xəbərin ünvanı

*Bunu 2023-cü il fevralın 27-də Moderator.az-a açıqlamasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı deyib.*

Azərbaycanda universitetlərin nüfuzu haqda danışan Hamlet İsaxanlı daha çox dövlət universitetlərindəki duruma diqqət çəkib:

“Azərbaycanda özəl universitetlərdən əvvəl dövlət universitetlərinin nüfuzunu qaldırmaq lazımdır. Çünki tələbələrin böyük əksəriyyəti dövlət universitetlərində təhsil alırlar. Bu universitetlərin sayı çox olduğu kimi, içərisində zəif olanları da az deyil. Eyni qaydada, özəl universitetlərin də arasında aşağı, orta səviyyəli və güclü universitetlər var. Nəzərə alsaq ki, tələbələrin böyük əksəriyyəti dövlət universitetində təhsil alır, onların gücünün artırılmasına diqqət yetirmək lazımdır.

Bu sahədə dünyada mənzərə rəngarəngdir. Belə ki, hər ölkənin öz ənənəsi var. Məsələn, Şərqi Avropanı çıxmaq şərti ilə, Avropada universitetlərin əksəriyyəti dövlət əsaslıdır. Özəl universitetlər çox azdır. Lakin onlar avtonomdurlar, sərbəst hərəkət edirlər. Yaxşı universitetlərin hamısı istisnasız dövlət, yaxud da, publik statuslu universitetlərdir”.

“Amerikada isə vəziyyət tərsinədir. Orda güclü universitetlərin böyük əksəriyyəti özəl olanlardır. Dövlət universitetlərinin içərisində güclülər var, amma bu sektorda diqqət, əsasən, özəl universitetlərə verilir" deyə, professor sonda əlavə edib.

**Rəna Nəbi**

*Professor, academician Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, said in his interview to Moderator.az on February 27, 2023.*

Talking about the reputation of universities in Azerbaijan, Hamlet Isakhanli paid more attention to the situation in state universities:

“In Azerbaijan, it is necessary to raise the reputation of state universities before than private ones, as the vast majority of students study at state universities. The number of these universities is large, but there are also many weak ones. Similarly, among private universities, there are low, medium and strong universities. Considering that the vast majority of students study at a state university, it is necessary to pay attention to increasing their strength.

The situation is quite different in this sphere in the world, as every country has its own traditions. For example, with the exception of Eastern Europe, most universities in Europe are public. There are very few private universities. However, they are autonomous and act freely. All good universities, without exception, are state or public-status universities.

“In America, the situation is opposite. The vast majority of strong universities there are private. There are strong state universities, but in this sector attention is mainly paid to private universities’, the professor mentioned at the end.

**Rana Nabi**

*https://moderator.az/az/ekskluziv/604586/zellerden-evvel-dvlet-universitetlerinin-nufuzunu-qaldirmaq-lazimdir-hamlet-isaxanli/*

## “CREATIVE SPARK” LAYİHƏSİNİN BAĞLANIŞ MƏRASİMİ

## CLOSING CEREMONY OF "CREATIVE SPARK" PROJECT

Fevralın 24-də Bakıdakı “Fairmont Hotel”də British Council-ın “Creative Spark” layihəsinin yekunlarına həsr olunan görüş keçirilib.

Görüşdə Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld, British Council-ın ölkə üzrə direktoru Nərgiz Hacıyeva, Təhsildə Keyfiyyətin Təminatı Agentliyi İdarə Heyətinin sədri Ülkər Səttarova, ölkənin 7 universitetindən olan nümayəndələr iştirak etmişlər.



*Vlad Vernygora*

Konfransın açılışında British Council-ın ölkə üzrə direktoru Nərgiz Hacıyeva çıxış edərək, layihə haqqında qeydlərini bildirib. Sonra Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld çıxış edib.

Tərəfdaş universitetlər “Creative Spark” layihəsində tərəfdaşlıq və bu tərəfdaşlıq nəticəsində əldə olunan nailiyyətlər haqqında 5 illik hesabatı təqdim edərək, proqram çərçivəsində Azərbaycanda həyata keçirilən sahibkarlıq təhsili təşəbbüsünü və öz təcrübələrini, Böyük Britaniya və Azərbaycan arasında təhsil modelləri və yaradılmış tərəfdaşlığın gələcək inkişafını müzakirə ediblər. Qeyd edək ki, 5 illik layihə Xəzər Universitetində İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva tərəfindən koordinasiya edilmiş və uğurla həyata keçirilmişdir.

Tədbirdə Xəzər Universitetini Beynəlxalq əlaqələr

On February 24, a meeting dedicated to the results of the British Council's "Creative Spark" project was held at the "Fairmont Hotel" in Baku.

British Ambassador to Azerbaijan Fergus Auld, Country Director of the British Council Nargiz Hajiyeva, Chairman of the Board of the Agency for Quality Assurance in Education Ulkar Sattarova, representatives from 7 universities of the country took part in the meeting.

At the opening of the conference, Nargiz Hajiyeva, the country director of the British Council, made a speech and expressed her remarks about the project. Then Fergus Auld, the ambassador of Great Britain to Azerbaijan, delivered a speech.

The partner universities presented a 5-year report on the partnership in the "Creative Spark" project and the achievements gained as a result of this partnership, and discussed the entrepreneurship education initiative implemented in Azerbaijan within the program and their own experiences, educational models between Great Britain and Azerbaijan, and the future development of the established partnership. Note that the 5-year project was coordinated and successfully implemented by Raziya Isayeva, director of the Development Office at Khazar University.

Khazar University was represented at the event by Vlad Vernygora, vice-rector for International Relations, Sabina Guluyeva, project manager of the Development Office, and Humay Huseynova, assistant to the rector.

In the 2nd part of the event, the representative of Khazar University, Vlad Vernygora, spoke about the path of the "Creative Spark" project at Khazar University for 5 years, and presented a report on the work done within the project and the successes achieved. Then, information was heard from Dr. George Dafoulas and Mahdi Aiash, employees of London Middlesex University, who were Khazar University's partner during the project.

The event was concluded with a discussion about the sustainability of the project and future activities.




*George Dafoulas*




*Mahdi Aiash*

üzrə prorektor Vlad Vernygora, İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quluyeva, rektorun köməkçisi Humay Hüseynova təmsil ediblər.

Tədbirin 2-ci hissəsində Xəzər Universitetinin nümayəndəsi Vlad Vernygora "Creative Spark" layihəsinin Xəzər Universitetində 5 il ərzində keçdiyi yoldan danışaraq, layihə çərçivəsində görülən işlər və qazanılan uğurlarla bağlı hesabatı təqdim edib. Sonra layihə müddətində Xəzər Universitetinin partnyoru olmuş London Middlesex Universitetinin əməkdaşları Dr. George Dafoulas və Mahdi Aiash`ın məlumatları dinlənilib.

Tədbir layihənin davamlılığı və gələcək fəaliyyətlərlə əlaqədar müzakirə ilə başa çatıb.

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ SPIN COATER VƏ SENTRIFUQA QURĞULARI HAZIRLAMIŞLAR

## FACULTY MEMBERS, STUDENTS OF THE PHYSICS AND ELECTRONICS DEPARTMENT PREPARED SPIN COATER AND CENTRIFUGE DEVICES

Xəzər Universitetinin Fizika və elektronika departamentinin "Elektronika, radiotexnika və telekommunikasiya" laboratoriyasında deparatmentin müəllimləri Əhməd Asimov, Muhəmməd Əlizadə və Babak Emdadi`nin tələbələrlə birlikdə çalışmaları nəticəsində diodlar və sensorlar üçün nazik təbəqə alınmasında istifadə edilən, Spin Coater və Sentrifuqa qurğuları hazırlanmışdır.

Bu qurğular 20 nm-300 nm qalınlıqda nazik təbəqələrin (diodlar və günəş elementləri və s. üçün) və 2 nm -20 nm ölçüsündə nanozərrəciklərin (grafen, quantum nanodot, quantum nanokristal v. s) alınmasında istifadə olunur.

Xaricdə 2000–7000-dollar arasında qiymətlə satılan bu qurğular departamentdə bir neçə dəfə ucuz qiymətə hazırlanmışdır. Onlardan Nanotexnologiya laboratoriyasında hazırlanan nazik təbəqələrin və nanozərrəciklərin alınmasında istifadə ediləcək və tədqiqat işləri aparılcaq.

Spin Coaters and Centrifuges have been prepared for the production of thin films for diodes and sensors as a result of the work of the faculty members of the Department Ahmad Azimov, Muhammad Alizade and Babak Emdadi in the laboratory "Electronics, Radio Engineering and Telecommunications" of the Physics and Electronics Department of Khazar University together with students.

These devices are used to obtain thin films of 20–300 nm thick (for diodes and solar cells, etc.) and nanoparticles with 2–20 nm in size (graphene, quantum nanodot, quantum nanocrystal, etc.).

These devices, which are sold abroad at a price of 2000-7000 dollars, have been made several times cheaper in the Department. They will be used to obtain thin films and nanoparticles prepared in the Nanotechnology laboratory, and research work will be carried out.



# İCTİMAİ TV-NİN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

# EMPLOYEE OF PUBLIC TELEVISION AT KHAZAR UNIVERSITY

*Saleh Bağırov, Firəngiz Nəsirova*

*Saleh Baghirov, Firangiz Nasirova*

Fevralın 27-də İctimai TV-nin baş aparıcısı Saleh Bağırov Humanitar, təhsil və sosial elmlər fakültəsi tələbələrinin qonağı olmuşdur.

İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirovanın İngilis dili və filologiyası qrupunun tələbələri ilə müasir dövr və gənclik mövzusunda müzakirələr aparılmışdır. Sonra Tarix və arxeologiya departamentinin müəllimi Roza Arazovanın Tarix və arxeologiya qrupu tələbələri ilə görüşdə tarixi hadisələr, sivilizasiya və mədəniyyət mövzularında disput keçirilmişdir.

On February 27, the chief presenter of the Public Television Saleh Baghirov was a guest of the students of the School of Humanities, Education and Social Sciences.

The head teacher of the Department of English Language and Literature Firangiz Nasirova discussed the topic of modernity and youth with the students of the English Language and Philology group. Then, at a meeting with the students of Roza Arazova's History and archeology group, the lecturer of the Department of History and Archeology, a debate was held on the topics of historical events, civilization and culture.



# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI XALQ ARTİSTİ ELŞƏN MANSUROVUN YUBİLEY TƏDBİRİNDƏ

# PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT THE JUBILEE EVENT OF PEOPLE'S ARTIST ELSHAN MANSUROV

Fevralın 27-də professor, akademik Hamlet İsaxanlı Azərbaycan Milli Konservatoriyasının "Uzundərə" Kamança Ansamblı və Xəzər Universitetinin Kamera Orkestrinin birgə layihəsi ilə Azərbaycan Milli Konservatoriyasında Xalq artisti, kamança ifaçısı, konservatoriyanın müəllimi Elşən Mansurovun 60 illiyi münasibətilə keçirilmiş yubiley tədbirində iştirak etmişdir.

Tədbiri konservatoriyanın rektoru, Xalq artisti professor Siyavuş Kərimi açmış, konservatoriyanın prorektoru, Əməkdar incəsənət xadimi professor Lalə Hüseynova yubilyarın həyat və fəaliyyəti haqqında çıxış etmişdir.

Tədbirin geniş konsert proqramında Milli Konservatoriyasının "Uzundərə" Kamança Ansamblı ilə Xəzər Universitetinin Kamera Orkestri (bədii rəhbər Zülfiyyə Sadıqova) tərəfindən (solo Elşən Mansurov) sözləri Hamlet İsaxanlının, musiqisi Nailəxanım İsayevanın olan "Gözəldir" mahnısı ilk dəfə bu tərkibdə ifa olunmuşdur.



*Mərkəzdə: Elşən Mansurov, Zülfiyyə Sadıqova*
*In the center: Elshan Mansurov, Zulfiyye Sadigova*

On February 27, professor, academician Hamlet Isaxanli participated in the jubilee event held at the Azerbaijan National Conservatory on the occasion of the 60th anniversary of People's Artist, kamancha player, lecturer of the conservatory Elshan Mansurov with the joint project of the "Uzundera" Kamancha Ensemble of the Azerbaijan National Conservatory and the Chamber Orchestra of Khazar University.

The event was opened by the rector of the conservatory, People's Artist Professor Siyavush Karimi, and the vice-rector of the conservatory, Honored Art Worker Professor Lala Huseynova spoke about the life and activities of the jubilee.

In the wide concert program of the event, the song "Gözeldir" ("It is beautiful") with lyrics by Hamlet Isakhanli and music by Nailekhanim Isayeva was performed for the first time by the Kamancha Ensemble of the National Conservatory "Uzundera" (solo Elshan Mansurov). and the Chamber Orchestra of Khazar University (artistic director Zulfiyye Sadigova)






*Səbinə Allahverənova*
*Sabina Allahveranova*

## TƏLİM: "CV NECƏ YAZILMALIDIR"

Fevralın 27-də Karyera Mərkəzi "CV necə yazılmalıdır" adlı təlim keçirdi. Təlimdə Mərkəzin meneceri Səbinə Allahverənova, universitetin 3-cü kurs tələbələrinə CV-nin düzgün yazılma qaydasını izah etdi. Sonra isə tələbələrin CV-lərinə baxış keçirərək, öz tövsiyələrini verdi.

## TRAINING: "HOW TO WRITE A CV"

On February 27, the Career Center held a training on "How to write a CV". During the training, the manager of the Center, Sabina Allahveranova, explained to the 3rd year students of the university how to write a CV correctly. Then she reviewed the CVs of the students and gave her recommendations.

## "MÜSAHİBƏ BACARIQLARININ YOXLANILMASI" TƏLİMİ

## TRAINING ON "INTERVIEW SKILLS CHECK"



*Pərvanə Kərimli*
*Parvana Karimli*



*Bahadır Baysal*
*Bahadır Baysal*

Fevralın 28-də Xəzər Universitetinin Karyera Mərkəzi 3-cü kurs tələbələri ilə "Müsahibə bacarıqlarının yoxlanılması" təlimini başa çatdırdı. Tələbələrin müsahibə bacarıqlarını Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova, İqtisadiyyat və menecment departamentinin koordinatoru Bahadır Baysal, Mühəndislik və təbiət elmləri fakültəsinin dekan köməkçisi Pərvanə Kərimli öz sualları ilə yoxlamışlar.

On February 28, Khazar University's Career Center completed the "Interviewing Skills Test" training with 3rd year students. Sabina Allahveranova, the manager of the Career Center, Bahadır Baysal, the coordinator of the Department of Economics and Management, and Parvana Karimli, the assistant dean of the School of Engineering and Science, tested their interview skills with their questions.

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI İSTANBULDA QLOBAL TƏRƏFDAŞLAR HƏFTƏSİNDƏ

Fevralın 27-28-də Xəzər Universitetinin nümayəndə heyəti tərəfdaşı olan İstanbul Aydın Universitetinin (İAU) təşkil etdiyi "Qlobal Tərəfdaşlar Həftəsi"ndə iştirak etdi. Erasmus+ Proqramı çərçivəsində Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva və Keyfiyyətə Təminat Mərkəzinin assistenti Kəmalə Mustafayeva tədbirdə Xəzər Universitetini təmsil etdilər.

Tədbirin məqsədi tərəfdaşları bir araya gətirmək, ikitərəfli əməkdaşlığı genişləndirmək, beynəlmiləlləşmə sahəsində ən yaxşı təcrübələrin mübadiləsi idi.

İştirakçılar bələdçili kampus turunda oldular və sonra öz universitetlərinin virtual proqramları, yay məktəbləri, dil və mədəniyyət kursları haqqında müxtəlif növ təqdimatlar keçirdilər. Xəzər Universitetinin nümayəndələri tərəfindən universitetin fəaliyyəti, beynəlxalq əlaqələri və təklif etdiyi təqaüd və proqramları özündə əks etdirən təqdimat nümayiş etdirildi. İAU-nun Beynəlmiləlləşmə üzrə məsləhətçisi Ayşe Deniz Ozkan tərəfindən Beynəlmiləlləşmə üzrə vörkşop keçirildi. Vörkşopda müxtəlif ölkələrin universitetləri öz təcrübələrini bölüşdü.




*Fatimə Vəliyeva, Kəmalə Mustafayeva*
*Fatima Valiyeva, Kamala Mustafayeva*

## KHAZAR EMPLOYEES AT GLOBAL PARTNERS WEEK IN ISTANBUL

On February 27-28, the Khazar University delegation took part in the "Global Partners Week", organized by its partner Istanbul Aydin University (IAU). Fatima Valiyeva, coordinator of the International Relations Office, and Kamala Mustafayeva, assistant of the Center for Quality Assurance, represented Khazar University at the event within the framework of the Erasmus+Program.

The purpose of the event was to bring partners closer, expand bilateral cooperation, and exchange best practices in the field of internationalization.

The participants took a guided tour of the campus and then made various presentations about their University's virtual programs, summer schools, and language and culture courses. Representatives of Khazar University made a presentation on the activities, international relations and offered scholarships and programs of the University. Ayshe Deniz Ozkan, IAU Internationalization Consultant, led a workshop on internationalization. Universities from different countries shared their experience at the workshop.



Elnur Gajiev

# HAWAİİ UNİVERSİTETİNİN MÜƏLLİMİ, FULBRAYT TƏQAÜDÇÜSÜ Dr. ELNUR GAJIEV`LƏ GÖRÜŞ

# MEETING WITH LECTURER OF HAWAII UNIVERSITY FULBRIGHT SCHOLAR ELNUR HAJIYEV

Fevralın 28-də Xəzər Universitetinin Psixologiya departamenti Amerikanın Hawaii Universitetinin müəllimi, fulbrayt təqaüdçüsü Dr. Elnur Gajiev`lə tələbələrin görüşünü keçirdi.

Görüşdə Dr. Elnur Gajiev tələbələrə öz təhsil həyatındakı təcrübələri, psixologiyada müasir yanaşmalar və inkişaf perspektivləri haqqında danışdı. Tələbələrin daxili fərqindəlikləri ilə əlaqəli praktiki bir çalışma da edildi. Dr.Elnur Gajiev tərəfindən tələbələrin çoxlu sualları cavablandırıldı və gələcək təhsil planları ilə bağlı tövsiyələr verildi.

On February 28, the Department of Psychology at Khazar University held a meeting of students with Fullbright Scholarship teacher Dr. Elnur Gajiev from the University of Hawaii in America.

At the meeting, Dr. Elnur Gajiev told the students about his experience of educational life, modern approaches in psychology and development prospects. A practical study was also conducted related to the internal awareness of students. Dr. Elnur Gajiev answered many of the students' questions, and recommendations were given regarding future plans.



## ADA UNİVERSİTETİNDƏ SEMİNAR

Martın 1-3-də ADA universitetində UNESCO Milli İştirak Proqramı Çərçivəsində "Akademik liderlik rolu üçün qadınların peşəkar bacarıqlarının gücləndirilməsi" üzrə Milli Seminar keçirilib.

3 günlük seminarda Xəzər Universitetini Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Arzu Bədəlova və rektorun köməkçisi Humay Hüseynova təmsil ediblər.

İxtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılova qeyd edib ki, seminarın məqsədi qadınların ali təhsil müəssisələrində və ümumi elmi cəmiyyətdə rəhbər vəzifələrdə kifayət qədər təmsil olunmaması ilə bağlı hazırkı vəziyyəti araşdırmaq, idarəetmədəki qadınların liderliyinə mane olan amilləri müəyyən etmək və müzakirələr aparmaq idi.

Seminarda Şəms Mustafayeva, Nailə Mehrabova, Vəfa Kazdal və digər təlimçilər praktiki məşğələlər vasitəsilə liderlik və peşəkar inkişaf vərdişlərinin artırılması, rəhbərlikdə gender bərabərliyinin təşviqi mövzularında çıxışlar etmişlər. Tədbir müzakirə və sertifikat təqdimatı ilə başa çatmışdır.



*Humay Hüseynova, Nərgiz İsmayılova*
*Humay Huseynova,Nargis Ismayilova*



*Arzu Bədəlova*
*Arzu Badalova*

## SEMINAR AT ADA UNIVERSITY

On March 1-3, a National Seminar was held on "Strengt- hening the professional skills of women for the role of academic leadership" within the framework of the UNESCO National Participation Program at ADA University.

At the three-day seminar, Khazar University was represented by Arzu Badalova, coordinator of the International Relations office, and Humay Huseynova, assistant to the rector.

Head of specialization programs stated that, the seminar was aimed at studying the current situation of underrepresentation of women in leadership positions in higher education institutions and in the general scientific community, identifying and discussing the factors hindering women's leadership in management.

At the seminar, Shams Mustafayeva, Naila Mehrabova, Vafa Kazdal and other trainers made presentations on improving leadership and professional development skills and promoting gender equality in management through practical exercises.

The event ended with a discussion and presentation of certificates.

# "1 MART – ÜMUMDÜNYA MÜLKI MÜDAFİƏ GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TƏDBİR

# EVENT DEDICATED TO "MARCH 1 – WORLD CIVIL DEFENSE DAY"






*Rövşən Abbasov, Rovshan Abbasov*

Xəzər Universitetində Təbiət elmləri və mühəndislik fakültəsi və Həyat elmləri departamentinin təşkilatçılığı ilə 2023-cü il martın 1-də "1 Mart – Ümumdünya Mülki Müdafiə Günü"nə həsr edilmiş tədbir keçirildi. Tədbirdə universitetin müəllim və tələbələri iştirak edirdilər.

Xəzər Universitetinin əməkdaşı, MM qərargahının üzvü, ehtiyatda olan polkovnik-leytenant Mais Talışxanov tədbiri açıq elan etdi. O, tələbələrə mülki müdafiənin əhəmiyyəti, vəzifələri, əhalinin fövqəladə hallara qarşı necə hazır olmağın yolları haqqında ümumi məlumat verdi. Sonra tədbiri aparmaq üçün söz universitetin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri Əminə Mahmudova və Aytən Hüseynliyə verildi. Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi və inkişaf yolu, Azərbaycanın bu təşkilatda rolu barədə məlumatı tədbir iştrakçılarına həmin fakültənin tələbəsi Əsmər Qasımova təqdim etdi.

"1 Mart – Ümumdünya Mülki Müdafiə Günü" hər il bir mövzuya həsr edilir. Bu il isə tədbir universitetin 1-ci kurs tələbəsi Sumayə Ələkbərovanın hazırladığı "Risklərin qiymətləndirilməsində informasiya texnologiyalarının rolu" mövzusunda təqdimatı ilə davam etdi. Məruzəçi fəlakətlərin idarə edilməsi üçün risklərin qiymətləndirilməsi və xəritələrlə bağlı qaydalarının, təbii və texnogen xarakterli fəlakət risklərinin ümumi icmalı sənədinin, o cümlədən risklərin qiymətləndirilməsi metodlarında informasiya texnologiyalarının tətbiqi və CİS (Coğrafi İnformasiya Sistemi) haqqında danışdı.

On March 1, an event dedicated to "March 1 – World Civil Defense Day" was organized by the School of Science and Engineering and the Department of Life Sciences of Khazar University. The event was attended by the faculty members and students of the University.

The event was opened by an employee of Khazar University, a member of the Civil Defense Headquarters and lieutenant colonel in reserve Mais Talishkhanov. He provided students with an overview of the importance of civil defense, its responsibilities and ways to prepare the population for emergencies. Then the word to run the event was given to students of the School of Humanities, Education and Social Sciences of the University Amina Mahmudova and Aytan Huseynli. Asmar Gasimova, a student of the same school, provided information about the history of the creation of the International Civil Defense Organization and the path of its development, and the role of Azerbaijan in this organization.

"March 1 – World Civil Defense Day" is dedicated to a specific theme every year. This year the event continued with the presentation "The Role of Information Technology in Risk Assessment" prepared by Sumaya Alakbarova, a first-year student at the University. The speaker talked of risk assessment rules and maps for disaster management, a general overview paper on the risks of natural and man-made disasters, including the application of information technology in risk assessment methods and GIS (Geographic Information System).

Recently, the death of thousands of people as a re-

Bu yaxınlarda qardaş Türkiyədə baş vermiş təbii fəlakət nəticəsində minlərlə insanın həyatını itirməsi, bina və qurğuların dağılması bir daha zəlzələ mövzusunu gündəmə gətirmişdir. Tədbirdə Humanitar, təhsil və sosial elmlər fakültəsinin 3-cü kurs tələbəsi Aygün İsmayılova Valeh Qocanın "Zəlzələ" və Bəxtiyar Vahabzadənin "Deprem" şeirlərini söylədi. "Geofiziki hadisə olan zəlzələlərin insanlara və obyektlərə təsiri " mövzusunda tələbə Röya İsmayılova təqdimatla çıxış etdi. Təqdimatda zəlzələlərin yaranma səbəbləri, obyektlərə, insanlara və cəmiyyətdə yaratdığı fəsadlar haqqında danışıldı. Həmçinin, qardaş Türkiyə respublikasında baş vermiş zəlzələnin və onun nəticələrinin aradan qaldırılmasında Azərbaycan respublikasının FHN əməkdaşlarının axtarış-xilasetmə işlərində göstərdiyi fədakarlığı və humanitar yardım haqqında tədbir iştirakçılarına geniş məlumat verdi. Məruzə, tələbə Ayna Seyidova tərəfindən hazırlanmış "FH üçün nəzərdə tutulmuş çanta"nın təqdimatı ilə bitdi.

sult of a natural disaster that happened in fraternal Türkiye, the collapse of buildings and structures again raised the issue of an earthquake. At the event, Aygun Ismayilova, a third-year student of the School of Humanities, Education and Social Sciences, read the poems "Earthquake" by Valeh Goja and "Deprem" (Earthquake) by Bakhtiyar Vahabzade. Student Roya Ismayilova made a presentation on the topic "The impact of earthquakes, which are geophysical phenomena, on people and objects" The presentation talked about the causes of earthquakes, the damage they cause to objects, people and society. The participants of the event were also broadly made aware of the dedication of the employees of the Ministry of Emergency Situations of the Republic of Azerbaijan in search and rescue operations to eliminate the earthquake that occurred in fraternal Türkiye and its consequences, and of humanitarian assistance. The lecture ended with a presentation of "Emergency bag" by student Ayna Seyidova.



*Əsmər Qasımova* *Asmar Gasimova*

Tədbirin praktiki hissəsində FH zamanı xilasetmə işlərinə aid olan, insanlara ilk yardım zamanı süni tənəffüsün verilməsi və ürəyin qapalı masajının qaydaları tələbə Nərgiz Hadıyeva tərəfindən nümayiş olundu. Bundan sonra tədbir iştirakçılarına ilk yardım çantasının istifadəsi, qanaxmalar və sınıqlar zamanı ilk yardım qaydaları tələbələr Dəniz Aslanlı və Aytac Ləlæxanova tərəfindən təqdim edildi.

Zədələnmə ocaqlarında xəsarət almış insanların yerdəyişməsi və daşınması təhlükəsizlik baxımından

*(Ardı səh.64-də)*

In the practical part of the event, student Nargiz Hadiyeva demonstrated the rules for performing artificial respiration in first aid and closed heart massage, which are associated with rescue operations during emergencies. Then, students Deniz Aslanli and Aytaj Lalakhanova presented to the participants of the event the rules for using a first aid bag, first aid for bleeding and fractures.

Since the movement and transportation of victims is very important from the viewpoint of security,

*(To be continued page 64)*



çox önəmli olduğu üçün "Zərərçəkənlərin daşınması üsullarını" tədbir iştirakçılarına Humanitar, təhsil və sosial elmlər fakultəsinin 1-ci kurs tələbələri Mirməhəmməd Cabbarov, Şəhriyar Rüstəmov, Amil Ağasıyev, Murad İsmayilzadə və Gündüz Məmmədli izah edib, praktiki göstərdilər.

Tədbirdə çıxış edən Xəzər Universitetinin Fövqəladə hallar komissiyasının üzvü, Coğrafiya və ətraf mühit departamentinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Abbasov "Dünyada baş verən təbii fəlakətlərin proqnozlaşdırılması və təhlili haqqında muasir elmi baxışlar barədə məlumat verdi. Universitetinin MM qərargahının üzvü, inzibati şöbənin koordinatoru İslam Hüseynov isə insanların təhlükəsizliyinin təmin olunması və fövqəladə hallar zamanı əhalinin mühafizəsinin xüsusi əhəmiyyəti haqqında məlumatlatla çıxış etdi. Bununla da tədbir yekunlaşdı.



Mirmahammad Jabbarov, Shahriyar Rustamov, Amil Aghasiyev, Murad Ismayilzade and Gunduz Mammadli, 1st year students of the School of Humanities, Education and Social Sciences, explained and practically demonstrated to the participants of the event "methods of transporting victims".



Speaking at the event, Rovshan Abbasov, member of the Commission for Emergency Situations of Khazar University, Head of the Department of Geography and Environment, Doctor of Philosophy in Geography, presented information on modern scientific views on "Forecasting and analysis of natural disasters in the world".



Islam Huseynov, member of the Civil Defense Headquarters of the University and coordinator of the Administrative Division, spoke about the special importance of ensuring the safety of people and protecting the population during emergencies. This is where the event ended.




*Mərkəzdə: Mustafa Aydın*
*In the center: Mustafa Aydin*

## XƏZƏR UNİVERSİTETİ EURIE-2023 TƏHSİL SAMMİTİNDƏ

Martın 1-3-də İstanbul şəhərində yerləşən Lütfi Kırdar Beynəlxalq Konqres Mərkəzində (ICEC) EURIE-2023 Təhsil Sammitinin rəsmi açılışı oldu. Sammiti giriş sözü ilə Avrasiya Universitetlər Birliyinin prezidenti Dr. Mustafa Aydın açdı.

Sammitdə Keyfiyyətin Təminatı Mərkəzinin assistenti Kəmalə Mustafayeva və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva iştirak edirdilər.

Sərgidə Xəzər Universitetinin nümayəndələri universitetin stendində universitetin fəaliyyəti və imkanları haqqında məlumat verdilər. Bununla yanaşı, nümayəndələr universitetin tərəfdaşlarının stendlərində də oldular və yeni əməkdaşlıqlar üçün digər universitetlərlə də danışıqlar aparıldı.

Sammitin ikinci günündə Avrasiya Universitetlər Birliyinin prezidenti Dr. Mustafa Aydın Xəzər Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Sumqayıt Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universitetinin stendlərini özündə birləşdirən Azərbaycan stendinə gəldi. Görüşdə Dr. Mustafa Aydın universitetlərin öz nümayəndələri ilə Sammitdə təmsil olunmasının önəmini vurğuladı.

## KHAZAR UNIVERSITY AT THE EURIE-2023 EDUCATION SUMMIT

On March 1-3, the official opening of the EURIE-2023 Education Summit took place at the Lutfi Kirdar International Congress Center (ICEC) located in Istanbul. The President of the Union of Eurasian Universities, Dr. Mustafa Aydin, opened the summit with an opening speech.

The summit was attended by Kamala Mustafayeva, assistant at the Center for Quality Assurance, and Fatima Valiyeva, coordinator of the International Relations Office.

At the exhibition, representatives of Khazar University provided information about the activities and opportunities of the University at the stand of the University. In addition, representatives visited the stands of the University partners, and negotiations were held with other universities on new collaborations.

On the second day of the summit, President of the Union of Eurasian Universities Dr. Mustafa Aydin approached the Azerbaijani stand, which included the stands of Khazar University, Nakhchivan State University, Azerbaijan University of Languages, Sumgait State University, National Aviation Academy, and Azerbaijan University of Architecture and Construction. At the meeting, Dr. Mustafa Aydin emphasized the importance of representing the universities by their representatives at the Summit.

## ANKARA YAXIN ŞƏRQ TEXNİKİ UNİVERSİTETİNİN PROFESSORU AYÇA ERGUN TƏRƏFİNDƏN ONLAYN KONFRANS

## ONLINE CONFERENCE OF AYCHA ERGUN, PROFESSOR AT ANKARA MIDDLE EAST TECHNICAL UNIVERSITY

Martın 3-də Ankara Yaxın Şərq Texniki Universitetinin professoru Ayça Ergun "Azərbaycanda milli kimlik və multikulturalizm haqqında" mövzusunda onlayn konfrans keçirmişdir.

Konfransda Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Tərlan Orucova və tələbələr iştirak etmişlər.

Onlayn konfrans Azərbaycanın tarixi, milli kimlik, ölkədə olan multikultural dəyərlər və s. məsələləri əhatə etmişdir. Təqdimatdan sonra tələbələrin sualları cavablandırılmışdır.

On March 3, Aycha Ergun, a professor at Ankara Middle East Technical University, held an online conference on "National Identity and Multiculturalism in Azerbaijan".

The conference was attended by the head of the Department of Political Sciences and Philosophy Dr. Orkhan Valiyev, deputy dean of the School of Humanities, Education and Social Sciences of Khazar University Tarlan Orujova and students.

The online conference covered the history of Azerbaijan, national identity, multicultural values in the country, etc. After the presentation, students' questions were replied.

## MDU-DA KİTAB TƏQDİMATI: "BƏRPA OLUNAN ENERJİ EHTİYATLARINDAN İSTİFADƏYƏ GİRİŞ"

## BOOK PRESENTATION AT MSU: "INTRODUCTION TO THE USE OF RENEWABLE ENERGY RESOURCES"

Martın 10-da Mingəçevir Dövlət Universitetində (MDU) "Bərpa olunan enerji ehtiyatlarından istifadəyə giriş" adlı kitabın təqdimatı keçirilib.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun müəllifliyi ilə yazılmış kitabın təqdimatında MDU-nun bir qrup professor-müəllim heyəti, tələbələr və magistrantlar iştirak ediblər.

Tədbirin açılışında kitabın mövzusunun aktuallığından danışan MDU-nun rektoru Şahin Bayramov son dövrdə ölkəmizdə bərpa olunan enerji ehtiyatlarından istifadəyə marağın artdığını və bu sahənin inkişafı ilə əlaqədar dövlət tərəfindən sistemli və kompleks tədbirlərin həyata keçirildiyini bildirib. Bu baxımdan kitabın mühüm elmi-nəzəri, tədris-metodiki və praktik əhəmiyyət kəsb etdiyini qeyd edən rektor dərsliyin mühəndis kadrların hazırlığını həyata keçirən MDU-da da tələbə və müəllimlər üçün faydalı olacağını vurğulayıb.

Sonra kitabın ayrı-ayrı bölmələri üzrə məruzələr dinlənilib. Diqqətə çatdırılıb ki, kitabın yazılmasında əsas məqsəd, müəlliflərin qeyd etdiyi kimi, oxucularda bərpa olunan enerji ehtiyatları, onlardan istifadə və bu sahədə müasir problemlər haqqında müfəssəl baza bilikləri yaratmaq olub. Müzakirələrdə müəlliflərin öz məqsədlərinə çatdığına əminlik ifadə edilib.

*AZƏRTAC* təqdimat haqqında xəbər yayımlayıb:

On March 10, the presentation of the book "Introduction to the use of renewable energy resources" was held at Mingachevir State University (MSU).

A group of MSU faculty members, students and graduate students participated in the presentation of the book written by Rector of Baku Higher Oil School Elmar Gasimov and Rovshan Abbasov, head of Geography and Environment Department of Khazar University.

At the opening of the event, MSU rector Shahin Bayramov, who spoke about the relevance of the book's topic, said that interest in the use of renewable energy resources has recently increased in our country, and systematic and complex measures are being implemented by the state in connection with the development of this field. Noting that the book is of great scientific-theoretical, teaching-methodical and practical importance in this regard, the rector emphasized that the textbook will be useful for students and faculty at MSU, which trains engineering personnel.

Then, reports on individual sections of the book were heard. It has been pointed out that the main goal of writing the book, as noted by the authors, was to create detailed basic knowledge about renewable energy resources, their use and modern problems in this field. In the discussions, the authors expressed confidence that they had achieved their goals.

*AZERTAC* published news about the presentation:

***https://azertag.az/xeber/MDU_da_kitab_teqdimati_Berpa_olunan_enerji_ehtiyatlarindan_istifadeye_giris-2525174***

# "HUMA QUŞU" FONDUNUN TƏQDİMATI

# PRESENTATION OF "HUMA GUSHU" FOUNDATION






*Şəhla Vəzirova Shahla Vazirova*

Martın 10-da Xəzər Universitetində "Huma Quşu" Təhsilə Yardım Fondunun təqdimatı keçirilib. Tədbirdə universitetin professor-müəllim heyəti, tələbələr və media təmsilçiləri iştirak edib.

Fond Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşı, Komitə xətti ilə Kolumbiyanın Medelin şəhərində çalışdığı zaman faciəli şəkildə həyatını itirən Humay Vilayət qızı Quliyevanın xatirəsini yaşatmaq və humanitar fəaliyyətini davam etdirmək məqsədi ilə yaradılıb.

Universitetin rektoru İradə Xəlilova Fondun və universitetin təhsil və xeyriyyəçilik sahəsində hədəflərinin kəsişmə nöqtələrindən danışıb, təhsilə yardım göstərən ictimai institut və xeyriyyə fondlarının fəaliyyətini gələcəyə investisiya kimi dəyərləndirib.

Tədbirdə Humay haqqında çəkilmiş, dostlarının və həmkarlarının xatirələrinin yer aldığı sənədli film nümayiş etdirilib.

Tədbirdə "Huma quşu" Fondunun prezidenti, Humayın anası Şəhla Vəzirova və Fondun Himayəçilik Şurasının üzvü Leyla Tağızadə Fondun təhsilə dəstək və təqaüd proqramları, fəaliyyət göstərdiyi müddət ərzində qazilərə və maliyyə imkanı məhdud tələbələrə təhsilə yardım istiqamətində verilmiş dəstək və gələcək planlardan, o cümlədən 2023- cü ilin magistr təqaüd proqramından danışıblar."Huma Quşu" Fondunun nümayəndəsi Səidə Abdullayeva fondun təqdim etdiyi imkanların qazilərin həyatına təsirindən və cəmiyyətə inteqrasiya imkanlarından danışıb. Tədbir auditoriyanın suallarının cavablandırılması ilə davam edib.

Qeyd edək ki, Fondun fəaliyyəti barədə ətraflı məlumat və proqramlarda iştirak üçün ərizə forması Fondun *Facebook* səhifəsində və *humagushu.az* saytında yerləşdirilib.

On March 10, the presentation of the "Huma gushu" Educational Charity Fund was held at Khazar University. University faculty, students and media representatives took part in the event.

The fund was established to keep alive the memory of Humay Vilayat Guliyeva, an employee of the International Committee of the Red Cross, who tragically lost her life while working for the Committee in the city of Medellin, Colombia, and to continue her humanitarian activities.

Rector of the university, Irada Khalilova, spoke about the intersection of the goals of the Foundation and the university in the field of education and charity, and evaluated the activity of public institutes and charity funds that provide assistance to education as an investment in the future.

A documentary film about Humay was shown at the event, with the memories of her friends and colleagues.

At the event, Shahla Vazirova, Humay's mother, the president of the "Huma gushu" Foundation, and Leyla Tagizadeh, the member of the Foundation's Board of Trustees, spoke about the educational support and scholarship programs of the Foundation, the support given to veterans and students with limited financial means during its activity, and future plans, including 2023 Master's Scholarship Program. The representative of the "Huma gushu" Foundation Saida Abdullayeva spoke about the impact of the opportunities provided by the foundation on the lives of veterans and the opportunities for integration into society. The event continued with answering questions from the audience.

Note that detailed information about the activities of the Foundation and the application form for participation in the programs are posted on the *Facebook* page of the Foundation and on the *humagushu.az* website.

# XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ KÜNİB-İN TƏHSİL SƏRGİSİNİN AÇILIŞINDA

# KHAZAR UNIVERSITY ADMINISTRATION AT THE OPENING OF KUNIB EDUCATIONAL EXHIBITION



*Hamlet İsaxanlı, Ramazan Korkmaz, Cahit Bağcı*
*Hamlet Isakhanli, Ramazan Korkmaz, Cahit Baghci*

Martın 11-də Marriott Absheron Baku hotelində KÜNİB-in (Kafkasya Üniversiteler Birliği) təhsil sərgisinin açılışı oldu. Sərgidə Türkiyənin 15 universitesi iştirak edirdi. Açılışda KÜNİB-in başqanı Ramazan Korkmaz, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış etdilər.

Açılışda Xəzər Universitesinin rektoru İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdilər.

On March 11, the educational exhibition of KUNIB (Caucasus University Association) was opened at the Marriott Absheron Baku hotel. 15 Turkish universities participated in the exhibition. Ramazan Korkmaz, the head of KUNIB, Cahit Baghci, the Turkish ambassador to Azerbaijan, Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician, spoke at the opening.

Rector of Khazar University Irada Khalilova, director of Public Relations and media Alovsat Amirbeyli took part in the opening.



*Hamlet İsaxanlı Hamlet Isakhanli*

# "CINTANA EDUCATION" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI ARASINDA ZOOM VASİTƏSİLƏ GÖRÜŞ

# ZOOM MEETING HELD BETWEEN REPRESENTATIVES OF "CINTANA EDUCATION" COMPANY AND HAMLET ISAKHANLI

Martın 14-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı ABŞ-ın Universitetlərin İnkişafına və Böyümesinə kömək edən məşhur "Cintana Education" şirkətinin təsisçisi və prezidenti Douglas L. Becker ilə Zoom vasitəsilə görüşdü.



*Çağrı Bağcıoğlu*
*Chaghri Baghchioghlu*

Douglas L. Becker əvvəl "Laureate Education" şirkətinin təsisçisi və direktoru olmuş, həmçinin "Sterling Partners" şirkətinin həmtəsisçisidir və bir müddət onun direktoru olmuşdur. Görüşdə "Cintana"nın Şərqi Avropa və Mərkəzi Asiya üzrə müdiri Çağrı Bağcıoğlu, həmçinin Hamlet İsaxanlının həmtəsisçi olduğu Şərq-Qərb Universiteti (East-West University, Tbilisi) həmtəsisçiləri və professor Said İrandoust iştirak etdilər. "Cintana" Arizona Dövlət Universiteti (Arizona State University) ilə işbirliyində təsis edilmişdir. Görüşdə Xəzər Universiteti və onun inkişafı perspektivləri, eləcə də yeni təsis olunmuş Şərq-Qərb Universitetinin inkişafı məsələsi müzakirə olundu.

Tərəflər yaxın zamanda yeni görüş keçirmək və perspektivləri dəqiqləşdirmək barədə razılığa gəldilər.

On 14 March Professor academican Hamlet Isakhanli held a meeting via Zoom with Douglas L. Becker, founder, chairman, and CEO of the famous USA-based "Cintana Education" Company-Helping Universities Improve and Grow.



*Douglas L. Becker*

Douglas L. Becker was the founder, former chairman, and CEO of "Laureate Education" Company and co-founder and CEO of Sterling Partners for a while. The meeting was attended by Chaghri Baghchioghlu, the head of the "Cintana" for Eastern Europe and Central Asia, as well as the co-founders of East-West University (Tbilisi), co-founded by Hamlet Isakhanli and Professor Said Irandoust. "Cintana" was founded in partnership with Arizona State University. In the meeting, Khazar University, and its development perspectives, also the development of the newly established East-West University, were discussed.



*Said Irandoust*

The parties agreed to hold a new meeting soon to determine the perspectives.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI 26-CI AVRASYA İQTİSADİ ZİRVƏ TOPLANTISINDA
# KHAZAR UNIVERSITY STAFF MEMBER AT THE 26TH EURASIAN ECONOMIC SUMMIT

Martın 13-15-də Türkiyənin İstanbul şəhərində Mərmərə Qrupu Vəqfinin təşkilatçılığı ilə 26-cı Avrasya İqtisadi Zirvə Toplantısı keçirildi. Toplantıda dünyanın 44 ölkəsindən 3 dövlət başçısı, 16 sabiq prezident olmaqla 800-dən artıq nümayəndə iştirak edirdi. Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də tədbirə dəvət olunmuşdu.

Toplantını giriş söz ilə Mərmərə Grupu Vəqfinin başqanı Akkan Suver açaraq, dövlət başçılarını və bütün qonaqları salamladı. Türkiyə Böyük Millət Məclisinin millət vəkili Şamil Ayrım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Respublikasının Energetika naziri Pərviz Şahbazov isə Azərbaycan Prezidenti İlham Əliyevin toplantı iştirakçılarına ünvanlanmış məktublarını oxudular.

Tədbirin 1-ci günü türk tarixçi alim İlber Ortaylı, Makedoniyanın sabiq prezidenti George İvanov, KKTC-nin prezidenti Ersin Tatar, millət vəkili Nizami Cəfərov, energetika Naziri Pərviz Şahbazov, millət vəkili Valeh Ələsgərov, Moldovanın sabiq prezidenti Petru Luçinski, Türkiyənin sabiq xarici işlər naziri Hikmet Çetin, Moldovanın sabiq baş naziri Kril Gaburici, Ukrayna millət vəkili Anna Purtova, ABŞ Dünya Sülh və Sevgi Federasiyasının prezidenti Artur Hsieh və digər məruzəçilər çıxış etdilər.

Zirvə toplanrısının 2-ci günü keçirilən ilk iclasında dünyanın 10 ölkəsindən 20-dən artıq dövlət, bələdiyyə, qeyri-hökümət təşkilatlarının nümayəndələri və din xadimlərinin müxtəlif mövzularda məruzələri dinlənildi. Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ə. Əmirbəyli həmin iclasın katibliyinə seçilmişdir.

Zirvə toplantısının son günündə sabiq prezidentlər Abdullah Gül (Türkiyə), Marina Çavara, Mladen İvanic (Bosna-Hersek), Emil Konstantinescu (Ruminya), George İvanov (Makedonya), İvo Josipovic, Stjepan Mesic (Xorvatiya), Vaclav Klaus (Çexiya), Petru Luçinski (Moldova), Moncef Marzouki (Tunis), Nambar Enkhbayar (Monqolistan), Fatmir Sejdiu (Kosova), Bamir Topi (Arnavutluk), İrina Vlah (Gagauziya), Filip Vujanovic (Karadağ) çıxış edərək, son zamanlar dünyada yaranmış vəziyyətlə bağlı ölkələrinin mövqelərini bildirdilər.

Zizrvə toplantısının sonunda xatirə şəkilləri çəkildi. Sabiq prezident Abdullah Gül tərəfindən xarici ölkə rəhbərlərinin və qonaqların şərəfinə ziyafət verildi.

On March 13-15, the 26th Eurasian Economic Summit was held in Istanbul, Türkiye, organized by the Marmara Group Foundation. More than 800 representatives, including 3 heads of state and 16 former presidents, from 44 countries of the world participated in the meeting. Alovsat Amirbeyli, Director of Public Relations and Media of Khazar University, was also invited to the event.

Akkan Suver, head of the Marmara Group Foundation, opened the meeting with an introductory speech and greeted the heads of state and all the guests. The letters from President of Türkiye Recep Tayyip Erdogan and President of Azerbaijan Ilham Aliyev, addressed to the participants of the meeting, were read out by the MP of the

Turkish Grand National Assembly Shamil Airim and Minister of Energy of the Republic of Azerbaijan Parviz Shahbazov accordingly.

On the 1st day of the event, Turkish historian and scientist Ilber Ortaylı, former president of Macedonia Gjorge Ivanov, president of TRNC Ersin Tatar, MP Nizami Jafarov, Minister of Energy Parviz Shahbazov, MP Valeh Alasgarov, former president of Moldova Petru Lucinschi, former Minister of Foreign Affairs of Türkiye Hikmet Chetin, former Prime Minister of Moldova Chiril Gaburici, Ukrainian MP Anna Purtova, President of the USA World Federation of Peace and Love Arthur Hsieh and other speakers delivered speeches.

At the first meeting held on the 2nd day of the summit, reports of more than 20 representatives of state, municipal, non-governmental organizations and clergymen from 10 countries of the world listened on various topics were heard. Khazar University Public Relations and Media Director A. Amirbeyli was elected secretary of that meeting.

On the last day of the summit, former presidents Abdullah Gul (Türkiye), Marinko, Cavara, Mladen Ivanić (Bosnia-Herzegovina), Emil Konstantinescu (Romania), Gjorge Ivanov (Macedonia), Ivo Josipovic, Stjepan Mesic (Croatia), Vaclav Klaus (Czech Republic), Petru Lucinschi (Moldova), Moncef Marzouki (Tunisia), Nambar Enkhbayar (Mongolia), Fatmir Sejdiu (Kosovo), Bamir Topi (Arnavutluk), Irina Vlah (Gagauzia), Filip Vujanovic (Karadagh) spoke and expressed the positions of their countries on the recent situation in the world.

At the end of the summit, memory photos were taken. Former president Abdullah Gul hosted a banquet in honor of foreign leaders and guests.





*Əlövsət Əmirbəyli, Yahya Temel Tatlısu, İrina Vlah, Ali Kemal Özdemir.*

*Alovsat Amirbeyli, Yahya Temel Tatlisu, Irina Vlah, Ali Kemal Ozdemir.*



*Şamil Ayrım, Əlövsət Əmirbəyli, Süleyman Mecidli.*

*Shamil Ayrim, Alovsat Amirbeyli, Suleyman Mecidli.*



## "Aİ-NİN ŞƏRQ TƏRƏFDAŞLIĞINDAN Aİ-NİN MƏRKƏZİ ASİYA SİYASƏTİNƏ: DAVAMLILIQ VƏ DƏYİŞİKLİK" MÖVZUSUNDA KONFRANS

## CONFERENCE ON "FROM THE EU'S EASTERN PARTNERSHIP TO THE EU'S CENTRAL ASIA POLICY: CONTINUITY AND CHANGE"

Fevralın 16-17-də Niderlandın Groningen Universitetindən olan iştirakçılar ilə Xəzər Universitetində "Aİ-nin Şərq tərəfdaşlığından Aİ-nin Mərkəzi Asiya siyasətinə: davamlılıq və dəyişiklik" mövzusunda iki günlük konfrans keçirilmişdir. Konfrans Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilovanın açılış nitqi ilə başlamış və universitetdən əməkdaşlar, müəllim və tələbə heyəti də iştirak etmişdir.

Konfransda İtaliya, Çexiya, Polşa, Qazaxıstan, Belçika və İspaniyadan olan mütəxəssislərin, həmçinin Groningen Universitetinin əməkdaşları Mustafa Sezal, Marek Neuman və Agha Bayramovun çıxışları dinlənilmişdir.

Konfrans Groningen Universitetinin əməkdaşı Dr. Agha Bayramov və Xəzər Universitetinin Siyasi elimlər və fəlsəfə departamentinin əməkdaşı Dr. Fərid Quliyevin səyi ilə təşkil olunmuş və Beynəlxalq əlaqələr ofisi də təşkilatçılıqda iştirak etmişdir.

Əcnəbi heyətin konfransın 2-ci günündə Atəşgah məbədinə səfəri təşkil olunmuşdur.

On February 16-17, a two-day conference on "From EU's Eastern Partnership to EU's Central Asia Policy: Continuity and Change" was held at Khazar University with participants from the University of Groningen in the Netherlands. The conference started with the opening speech of the rector of Khazar University, associate professor Irade Khalilova, and university employees, teachers and students also participated.

Speeches of experts from Italy, Czech Republic, Poland, Kazakhstan, Belgium and Spain, as well as, Groningen University eployees Mustafa Sezal, Marek Neuman and Agha Bayramov were heard at the conference.

The conference was organized by the efforts of Dr. Agha Bayramov, an employee of Groningen University, and Dr. Farid Guliyev, an employee of the Department of Political Sciences and Philosophy of Khazar University, and the International Relations Office also participated in the organization.

The visit of the foreign delegation to the Ateshgah temple was organized on the 2nd day of the conference.



*Marek Neuman*



*Mustafa Sezal* *Agha Bayramov*

# ERASMUS+ TƏLƏBƏ MOBİLLİYİ ÜZRƏ MƏLUMAT SESSİYASI

# INFORMATION SESSION ON ERASMUS+ STUDENT MOBILITY






*Vlad Verniygora*



Fevralın 23-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisi tələbələr üçün Erasmus+ Tələbə Mobilliyi üzrə məlumat sessiyası keçirdi. Sessiyada universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Verniygora və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Erasmus+ Tələbə Mobilliyi üzrə tələbələrə ətraflı məlumat verdilər.

Sessiyada, həmçinin, mübadilə proqramında iştirak etmiş tələbələr – Təbiət elmləri və mühəndislik fakültəsinin dördüncü kurs tələbəsi (Kompüter mühəndisliyi ixtisası) Zaur Əliyev (İtaliyanın Roma Sapienza Universiteti) və İqtisadiyyat və menecment fakültəsinin dördüncü kurs tələbəsi (Biznesin idarə edilməsi ixtisası) Fərid Rəhimli (Türkiyənin Manisa Celal Bayar Universiteti) iştirak etdilər və Erasmus təcrübələrini paylaşdılar.

Sonda tələbələrin sualları cavablandırıldı.

On February 23, the International Relations Office of Khazar University held an information session on Erasmus+ Student Mobility for students. At the session, Vlad Verniygora, vice-rector for International Relations, and Fatima Valiyeva, coordinator of the International Relations Office of the University, gave the students detailed information about Erasmus+ Student Mobility.

The session was attended by students who participated in the exchange program – Zaur Aliyev, fourth-year student of the School of Science and Engineering (majoring in Computer Engineering) (Sapienza University of Rome, Italy) and Farid Rahimli, fourth-year student of the School of Economics and Management (majoring in Business Administration) (Manisa Celal Bayar University, Türkiye) took part and shared their Erasmus experience.

At the end, students' questions were replied.



Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları: Fatimə Vəliyeva, Arzu Bədəlova, Vlad Vernygora və Hüseyn Əliyev

Employees of International Office: Fatima Veliyeva, Arzu Badalova, Vlad Vernygora and Huseyin Aliyev

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# XƏZƏR UNİVERSİTETİNƏ "TƏŞƏKKÜRNAMƏ" TƏQDİM OLUNMUŞDUR

# "LETTER OF APPRECIATION" PRESENTED TO KHAZAR UNIVERSITY

Martın 16-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən Xəzər Universitetinə əcnəbi vətəndaşların ali təhsil müəssisələrinə cəlbinin təşviqi və onların təhsilinin təşkili sahəsində fəaliyyətinə görə "Təşəkkürnamə" təqdim olunmuşdur.

Belə ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyindən göndərilmiş məktublara, sorğulara məsuliyyətli yanaşma, operativ icra, əcnəbilərin sayında son 5 tədris ili üzrə artım dinamikası, *atis.edu.az* və *portal.edu.az* sistemlərindın səmərəli istifadə, əcnəbi tələbələrin ictimai-sosial fəallığının təmin edilməsi nəzərə almmaqla Xəzər Universiteti nazirliyin 3-29/3-1-250K/2023 nömrəli, 20.02.2023-cü il tarixli əmri ilə "Təşəkkürnamə" ilə təltif olunmuşdur.

Təqdimat görüşündə nazir müavini Firudin Qurbanov əcnəbi vətəndaşların ali təhsil müəssisələrinə cəlb olunması sahəsində önəmli məqamları və tövsiyələrini ali məktəblərin nümayəndələri ilə bölüşmüşdür.

Görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Fatimə Vəliyeva və Arzu Bədəlova iştirak etmişlər.

Görüşün sonunda nazir müavini tərəfindən "Təşəkkürnamə" təqdim olunmuşdur.

On March 16, the Ministry of Science and Education of the Republic of Azerbaijan presented a "Letter of Appreciation" to Khazar University for its activities in the field of promoting the involvement of foreign citizens in higher education institutions and organizing their education.

Thus, considering responsible approach to letters and inquiries sent from the Ministry of Science and Education of the Republic of Azerbaijan, prompt implementation, growth dynamics in the number of foreigners over the last 5 academic years, effective use of *atis.edu.az* and *portal.edu.az* systems, social activity of foreign students Khazar University was awarded with the "Letter of Appreciation" by the Ministry's Order No. 3-29/3-1-250K/2023, dated 20.02.2023.

At the presentation meeting, the deputy minister Firudin Gurbanov shared important points and recommendations with the representatives of higher education institutions in the field of attracting foreign citizens to HEIs.

Fatima Valiyeva and Arzu Badalova, employees of Khazar University's International Relations Department, took part in the meeting. At the end of the meeting, the deputy minister presented a "Letter of Appreciation".

# XƏZƏR UNİVERSİTETİNİN PROFESSORU QAİSAR SULTANA AZƏRBAYCANDA FULBRIGHT MÜTƏXƏSSİSİ MÜKAFATINA LAYİQ GÖRÜLÜB

# QAISAR SULTANA RECEIVES FULBRIGHT SPECIALIST AWARD TO AZERBAIJAN AT KHAZAR UNIVERSITY

Xəzər Universitetinin professoru Dr.Qaisar Sultana Azərbaycanda nüfuzlu Fulbright Mütəxəssisi Mükafatına layiq görülüb. Dr.Sultananın Xəzər Universitetindəki layihəsi müxtəlif təhsil və təlim fəaliyyətləri vasitəsilə həm Amerika Birləşmiş Ştatlarında, həm də Azərbaycanda iştirakçılara, institutlara və icmalara fayda verəcək bilikləri bölüşmək və tərəfdaşlıq qurmaq məqsədi daşıyır.

ABŞ Dövlət Departamenti və Fulbright Xarici Təqaüdlər Şurası tərəfindən maliyyələşdirilən xüsusi Fulbright Proqramı mükafat alanları akademik və peşə nailiyyətlərinə, öz sahələrində göstərilən liderliyə və ABŞ-da və xaricdə təhsil müəssisələri arasında uzunmüddətli əməkdaşlığı təşviq etmək potensialına görə seçir. Dr. Sultana hər il proqramda iştirak edən 400-dən çox ABŞ vətəndaşından biridir.

Qeyd edək ki, 1946-cı ildə təsis edilmiş Fulbright Proqramı ABŞ hökuməti tərəfindən maliyyələşdirilən qabaqcıl beynəlxalq təhsil mübadilə proqramıdır. Onun məqsədi ABŞ xalqı ilə digər ölkələrin xalqları arasında davamlı əlaqələr qurmaqdır. Proqram dünyanın 160-dan çox ölkəsində fəaliyyət göstərir və 400.000-dən çox tələbə, alim, müəllim, rəssam və elm adamına ABŞ-ın uzunmüddətli maraqlarını dəstəkləmək üçün əlaqələr quraraq öyrənmək, öyrətmək və tədqiqat aparmaq imkanı verib.

Dr. Sultana, Fulbright Proqramı üzrə mütəxəssis olaraq, müxtəlif təhsil fəaliyyətləri ilə Xəzər Universiteti, ABŞ və Azərbaycanın maraqları naminə bilik mübadiləsini təşviq etmək və ortaqlıqlar qurmaq üçün təcrübəsindən istifadə edəcəkdir.

Fulbright Proqramı və ya ABŞ Dövlət Departamenti haqqında ətraflı məlumat üçün *http://eca.state.gov/fulbright* saytına daxil olun və ya 202-632-6452 telefon nömrəsi ya da ECA e-poçtu ilə Təhsil və Mədəniyyət Məsələləri Bürosunun Mətbuat Ofisi ilə əlaqə saxlayın *-Press@state.gov.*

Khazar University is pleased to announce that Dr. Qaisar Sultana of , a professor at our institution has been awarded the prestigious Fulbright Specialist Award to Azerbaijan. Dr. Sultana's project at Khazar University aims to exchange knowledge and establish partnerships that will benefit participants, institutions, and communities in both the United States and Azerbaijan through a variety of educational and training activities within the field of education.

The Fulbright Specialist Program, sponsored by the U.S. Department of State and the Fulbright Foreign Scholarship Board, selects recipients based on their academic and professional achievement, demonstrated leadership in their field, and potential to foster long-term cooperation between institutions in the U.S. and abroad. Dr. Sultana is one of over 400 U.S. citizens who participate in the program annually.

It should be noted that the Fulbright Program, established in 1946, is the flagship international educational exchange program sponsored by the U.S. government. It aims to build lasting connections between the people of the United States and the people of other countries. The Program operates in over 160 countries worldwide and has given over 400,000 students, scholars, teachers, artists, and scientists the opportunity to study, teach, and conduct research while building relationships and leadership in support of the long-term interests of the United States.

As a Fulbright Specialist, Dr. Sultana will use her expertise to promote the exchange of knowledge and establish partnerships benefiting Khazar University, the U.S., and Azerbaijan through a variety of educational and training activities within the field of education. We are proud to have Dr. Sultana as a member of our faculty and look forward to the valuable contributions she will make to the Fulbright Program.

For more information about the Fulbright Program or the U.S. Department of State, please visit http://eca.state.gov/fulbright or contact the Bureau of Educational and Cultural Affairs Press Office by telephone 202-632-6452 or e-mail ECA-Press@state.gov.



# ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN NOVRUZ ŞƏNLİYİ

# NOWRUZ CELEBRATION FOR INTERNATIONAL STUDENTS

Martın 18-də Xəzər Universiteti Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə universitetdə təhsil alan əcnəbi tələbələr üçün Novruz şənliyi keçirildi. Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora bayram münasibətilə tələbələri təbrik etdi və Novruz haqqında öz təəssüratlarını bölüşdü. Tələbə məclisinin rəhbərliyi, Beynəlxalq əlaqələr ofisinin əməkdaşları - Arzu Bədəlova, Fatimə Vəliyeva və Hüseyn Əliyev də tələbələri təbrik etdilər.

Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva tərəfindən Azərbaycanın milli bayramının qədim adət-ənənələrini özündə əks etdirən viktorina keçirildi. Novruz bayramının rəmzləri barədə də ətraflı məlumatın verildiyi görüşdə əcnəbi tələbələr də bayram münasibətilə təbriklərini çatdırdılar, Novruz xonçası ətrafında toplaşaraq, yumurta döyüşdürdülər, Novruz təamlarına qonaq edildilər. Əcnəbi tələbələr universitet rəhbərliyinə dərin təşəkkürlərini bildirdilər.

Bayram şənliyi universitetin rəqs ansamblının (bədii rəhbər Səbinə İsmayılova) ifasında milli rəqslərlə davam etdi.

On March 18, a Nowruz celebration was held for international students of the university under the organization of Khazar University International Relations Office. Vlad Vernygora, vice-rector for International Relations, congratulated the students on the holiday and shared his impressions of Nowruz. The management of the student council, employees of the International Relations office - Arzu Badalova, Fatima Valiyeva and Huseyin Aliyev also congratulated the students.

Fatima Valiyeva, the coordinator of the International Relations office, held a quiz reflecting the ancient traditions of Azerbaijan's national holiday. At the meeting, where detailed information was given about the symbols of Nowruz holiday, international students also conveyed their congratulations on the occasion of the holiday, gathered around the Nowruz khoncha, had an egg fight, and tasted Nowruz meals. International students expressed their deep gratitude to the university administration.

The holiday celebration continued with national dances performed by the university's dance ensemble (artistic director Sabina Ismayilova). At the end of the celebration, memory photos were taken.












## ELMİ ŞURANIN İCLASI

Martın 29-da Xəzər Universiteti Elmi şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru, şuranın sədri dosent İradə Xəlilova açaraq, gündəlikdəki məsələni elmi şura üzvlərinin nəzərinə çatdırdı. Gündəlikdəki məsələ universitetin özünütəhlil hesabatının müzakirəsi və təsdiqi idi.

İ.Xəlilova universitetin akkreditasiyası ilə əlaqədar özünütəhlil hesabatının hazırlandığını bildirdikdən sonra tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev universitetin özünütəhlil hesabatı və özünüqiymətləndirmə balları haqqında məlumat verdi. Qeyd etdi ki, növbəti mərhələdə hər bir ixtisasın akkredetasiyası olacaq. M. Nuriyev sualları da cavablandırdı.

Elmi şuranın gündəliyindəki məsələ ətraflı müzakirədən sonra səsə qoyuldu və təsdiqi ilə bağlı müsbət qərar qəbul edildi.

## SCIENTIFIC COUNCIL MEETING

On March 29, the next meeting of the Scientific Council of Khazar University was held. The meeting was opened by the rector of the university, the chairman of the council, associate professor Irade Khalilova, who brought the issue on the agenda to the attention of the members of the scientific council. The item on the agenda was the discussion and approval of the university's self-assessment report.

After I. Khalilova stated that the self-analysis report related to the university's accreditation was prepared, vice-rector for Educational Affairs Muhammad Nuriyev gave information about the university's self-analysis report and self-evaluation scores. He noted that the next stage will be the accreditation of each specialty. M. Nuriyev answered questions as well.

After a detailed discussion, the issue on the agenda of the scientific council was put to a vote and a positive decision was made regarding its approval.



# "TRİPADVİSOR" BAKINI TREND MƏKANLAR SİYAHISINA ƏLAVƏ EDİB

Tanınmış səyahət platforması "Tripadvisor" Bakını səyahət üçün üstünlük verilən trend məkanlar siyahısına əlavə edib.

Bu barədə Dövlət Turizm Agentliyindən bildirilib.

Məlumata görə, siyahı 2022-ci il ərzində sayt istifadəçilərinin axtarış və maraqlarına əsaslanır.

Belə ki, platformanın veb-saytındakı "Dünya üzrə trend məkanlar" bölməsində 25 fərqli ölkənin şəhərləri qeyd olunub. Siyahıda Azərbaycan 8-ci yerdə qərarlaşır. (//bit.ly/3MnrXkn)

İlk onluqda 2021-ci illə müqayisədə 2022-ci ildə ən çox axtarış edilən ölkələr yer alıb.

"Tripadvisor" turistlər üçün maraqlı məkanları, ən yaxşı hotelləri, yemək üçün uyğun yerləri tövsiyə edir. Hər ay 463 milyon səyahətçiyə xidmət göstərən platformada ziyarətçilər məkanlarla bağlı istifadəçi şərhlərini oxuya və tövsiyələrə uyğun seçimlərini edə bilirlər. Veb-saytda 8,6 milyon yerləşmə vasitəsi, restoran, hava yolları və gəmi səyahəti haqqında 859 milyondan çox istifadəçi rəyi mövcuddur.

*https://moderator.az/az/cemiyyet/618519/tripadvisor-bakini-trend-mekanlar-siyahisina-elave-edib/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

## XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi